RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 265 (9144) BAZAR, 4 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Hər səfər inkişafa böyük töhfə verir

## İlham Əliyevin Şəki və Oğuzda açılışlarında və təməlinin qoyulmasında iştirak etdiyi müəssisələr bölgələrdəki yüksəlişin nümunələridir

Azərbaycanın yüksəlişinin əsas göstəricilərindən biri regionların davamlı inkişaf yoluna çıxarılmasıdır. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissələrindən biri kimi ötən 19 ildə bütün şəhər və rayonların iqtisadi potensialı hərəkətə gətirilib, əhalinin məşğulluğunun artırılması, sosial-rifahının yüksəldilməsi istiqamətində böyük keyfiyyət dəyişiklikləri baş verib.

*Bütün məqsədlərə çatılır*

Ən mühümü odur ki, pandemiyanın hələ tam başa çatmamasına, üstəlik, Azərbaycanın müharibəni yenicə başa vurmasına baxmayaraq, iqtisadiyyatımızda müsbət göstəricilər qeydə alınır. Gələn ilin dövlət büdcəsinin xərclərinin artımla tərtib olunması da iqtisadiyyatdakı və milli gəlirlərdəki müsbət dinamikanın təzahürüdür.

Bu günlərdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şəki rayonuna və dövlət başçısının Oğuz rayonuna səfərləri də göstərdi ki, regionların inkişafı davamlıdır. Bu səfərlər zamanı Prezidentin açılışlarında, təməlinin qoyulmasında iştirak etdiyi və tanış olduğu müəssisələr, infrastruktur layihələri bütövlükdə regional yüksəlişdən xəbər verir. Belə ki, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidən qurulması, Şəkinin Orta Zəyzid kəndində quru meyvə istehsalı müəssisəsinin fəaliyyətə başlaması, Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyalarının tikintisi, Oğuz rayonunda "Şəki-Oğuz" Aqroparkının yaradılması, burada qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlinin qoyulması regionlardakı inkişafın nümunələridir.

→ 2

## 2023-cü il "Heydər Əliyev İli"dir



# Ulu Öndərin şəxsiyyətinə yüksək ehtiram

### Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək

2023-cü il mayın 10-da Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasından 100 il ötür.

Azərbaycan xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onun müstəqilliyinə qovuşmasına töhfə vermiş qüdrətli şəxsiyyət Heydər Əliyevin yubileyi gələn il təntənə ilə qeyd ediləcək.

Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident İlham Əliyev sentyabrın 29-da sərəncam imzalayıb.

Noyabrın 28-də isə Prezidentin sərəncamı ilə Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilib.

Sərəncamla Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirməli, Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

→ 2

# Fransa beynəlxalq prinsiplərə hörmətsizlik edir

### Onların çirkin siyasi aksiyalarının Azərbaycana heç bir təsiri yoxdur

Fransanın dünyanın bir çox ölkələrinin və xalqlarının başına gətirdiyi müsibətlər, faciələr, soyqırımları tarixən Ermənistana örnək olub. Fransanı və Ermənistanı birləşdirən, bacı edən onların faşist xisləti, təcavüzkarlıq əməlləridir.

→ 5

# Azərbaycan Avropanın enerji xəritəsini dəyişir

### İlham Əliyevin qlobal layihələrinin uğurlarını həzm edə bilməyən Fransanın riyakar siyasəti heç bir nəticə verməyəcək

Son illərdə Azərbaycanın mühüm geosiyasi uğurlarından biri də dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu da artırıb. Hazırda dünyanın geosiyasi və iqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycan əsas açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunmaqdadır. Çünki Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz. Yəni Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Bu reallığı tərəfdaşlıq etdiyimiz böyük ölkələr də bölüşürlər.

→ 5

# Erməni dəyirmanına su tökən İran

Ermənipərəst... Ermənıyanlı İran Azərbaycanın Qarabağ münaqişəsini tarixin arxivinə göndərməsi faktını heç cür həzm edə bilmir. Çünki bu məkrli ölkə ötən dövr ərzində hər vəchlə bu münaqişənin əbədiyyətədək sürməsinə çalışıb, bunun üçün əlindən gələn hər şeyi edib. Vətən müharibəsindən sonra isə "erməni sevgisi" ilə alışıb yanan İran tarixi torpaqlarını işğaldan azad edərək suveren ərazilərini bərpa edən Azərbaycana qarşı açıq şəkildə düşmənçiliyə keçib.

→ 4

# Tehran Azərbaycanı təhdid edə bilməz

### Əks təqdirdə qarşılarında soydaşlarımızı görəcəklər

44 günlik müharibə zamanı İran öz ordusunu ölkəmizin sərhədlərinə toplayıb "təlimlər" keçməyə başladı, silahlar Azərbaycan tərəfə tuşlandı. Düzdür, İranın öz ərazisində, sərhədləri çərçivəsində nə edəcəyini və necə davranacağını müstəqil dövlət kimi özü müəyyənləşdirir.

→ 4

# İslam respublikasından növbəti riyakarlıq

İranın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycanın Qarabağ iqtisadi rayonuna diversiya qrupu göndərməsi ilə bağlı xəbərlər yayılıb. Bu, İranın ölkəmizə qarşı ənənəvi riyakarlığının davamıdır. Cənub qonşumuz əraziləri-miz 30 ilə yaxın işğal altında qalanda bir dəfə də olsun Ermənistana etirazını bildirmədi. Lakin son iki ildə baş verənlər göstərir ki, bu ölkə Azərbaycanın qələbəsini həzm edə bilmir. Çünki əslində İran işğala dəstək verən ölkədir.

→ 4

# İran erməni terrorçularını dəstəkləməkdə davam edir

Eyni zamanda bu anti-Azərbaycan hərəkətlərilə Rusiya sülhməramlıları bir daha göstərdilər ki, onlar əslində müvəqqəti olaraq "nəzarət etdikləri" əraziyə, ümumiyyətlə, nəzarət etmirlər. Artıq şübhə yoxdur ki, Azərbaycan toponimlərinin hər gün təhrif edilməsi, mənasız və boş bəyanatların yayılması ilə məşğul olan sülhməramlıların ciddi məsuliyyətə cəlb edilməsinin vaxtı yetişib.

→ 4



# 40 min taksi - çoxalan qəzalar, artan tıxaclar

→ 8

# Hər səfər inkişafa böyük töhfə verir

## İlham Əliyevin Şəki və Oğuzda açılışlarında və təməlinin qoyulmasında iştirak etdiyi müəssisələr bölgələrdəki yüksəlişin nümunələridir



Əvvəli 1-ci səh.

Bütün bunlar həm də ondan xəbər verir ki, Prezident İlham Əliyevin regionların inkişafı və quruculuq işləri ilə bağlı qarşıya qoyulan vəzifələr sürətlə icra olunur, bütün məqsədlər həyata vəsiqə alır. İstifadəyə verilən və təməli qoyulan yeni müəssisələr və infrastrukturlar isə həm regionun yüksəlişinə xidmət edəcək, həm də bütövlükdə respublikamızın inkişaf göstəricilərinə töhfə verəcək.

Onu da qeyd edək ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları üzrə qarşıya qoyulmuş vəzifələr bu rayonların hər birində icra olunub. Prezident İlham Əliyevin bölgələrə mütəmadi səfərləri və bunun nəticəsi olaraq imzaladığı sərəncamlar isə dövlət proqramlarının icrasını sürətləndirməklə görülən işlərə təkan verib.

### Heydər Əliyev Fondunun töhfələri

Respublikamızda gedən inkişaf proseslərinə Heydər Əliyev Fondu da layiqli töhfələr verməkdədir. O cümlədən regionların yüksəlişində də fond yaxından iştirak edir, dövlət siyasətinə dəstək olaraq mühüm layihələr həyata keçirir.

Şəki rayonunda görülən işlər də göstərdi ki, Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun regionlarda həyata keçirdiyi layihələr davamlı xarakter alıb. Bu layihələr həm tariximizin qorunmasına, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Fond tərəfindən həyata keçirilən layihələrdən biri də Şəki Xan məscidi kompleksində aparılan bərpa işləridir. Bərpa işləri 2021-ci ilin may ayından etibarən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib.

Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində 100 yerlik körpələr evi-uşaq bağçası da inşa edilib. Dekabrın 2-də Prezident İlham Əliyevin rayona səfəri zamanı istifadəyə verilən bağça ən müasir standartlara uyğun tikilib. Bu bağçanın inşası bir daha göstərir ki, Heydər Əliyev Fondu sosial infrastrukturun inkişafına layiqli və nümunəvi töhfələrini davam etdirir.

Ötən 19 ildə Prezident İlham Əliyev bütün şəhər və rayonlara davamlı şəkildə səfərlər edib. Reallıq odur ki, dövlət başçısının hər səfəri regionların sosial-iqtisadi həyatında dərin iz buraxıb, onların yüksəlişinə, iqtisadi potensialının daha da dirçəldilməsinə təkan verib. Prezident İlham Əliyevin Şəki və Oğuza səfərləri də bu rayonların inkişafının daha da sürətlənməsinə xidmət edəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azad edilmiş ərazilərdə hərbi qulluqçularla görüşlər keçirilib

Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hissinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu il üçün təsdiq olunan birgə tədbirlər planına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin hərbi qulluqçularının, eləcə də komitənin bir qrup nümayəndəsinin iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə hərbi qulluqçularla görüşlər keçirilib.

Görüşlərdə "Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması", "Gənclərin tərbiyəsində islam dininin rolu", eləcə də "Azərbaycan qanunvericiliyində vicdan azadlığı və dövlət-din münasibətləri" mövzularında geniş söhbətlər aparılıb, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

Həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti şəxsi heyətin diqqətinə çatdırılıb.



# Heydər Əliyev İli 2023

# Ulu Öndərin şəxsiyyətinə yüksək ehtiram

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək

Əvvəli 1-ci səh.



### Ulu Öndərin həyat və fəaliyyəti yerli və xarici mediada geniş işıqlandırılacaq

Tədbirlər Planında 2023-cü il ərzində "Heydər Əliyev İli" ilə bağlı yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, "dəyirmi masa" və seminarların keçirilməsi nəzərdə tutulub. Bu işlərin icrası Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Mərkəzinə həvalə olunub.

Gələn il ərzində yerli və xarici mediada Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən veriliş, sənədli film və videoçarxların nümayiş etdirilməsini, müsahibə və məqalələrin dərc olunmasını Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Medianın İnkişafı Agentliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Heydər Əliyev Mərkəzi təmin edəcək.

### Müsabiqə, sərgi, festival, konsert və tamaşalar

Prezident Administrasiyası, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə 2023-cü il ərzində Azərbaycanın şəhər və rayonlarında elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsini təşkil edəcək.

Habelə Azərbaycanın şəhər və rayonlarında "Heydər Əliyev İli"nə həsr olunmuş müxtəlif müsabiqələr, sərgi, festival və düşərgələr, konsert və tamaşaları - Prezident Administrasiyası, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət qurumlarını və qeyri-hökumət təşkilatlarını cəlb etməklə keçirəcəklər.

2023-cü il ərzində Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən "Heydər Əliyev İli" ilə bağlı tədbirlərin keçirilməsi Prezident Administrasiyasına, Xarici İşlər Nazirliyinə həvalə olunub.

Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan evləri və həftəsonu məktəblərində "Heydər Əliyev İli"nə həsr olunmuş tədbirlər keçirilməsi Prezident Administrasiyasına, Diasporla İş üzrə Dövlət Komitəsinə tapşırılıb.

Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda "Heydər Əliyev İli" ilə əlaqədar tədbirlərin təşkilini Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi icra edəcək.

### Ulu Öndər irsinə həsr olunmuş əsərlər, kitablar və monoqrafiyalar

Gələn il ərzində "Heydər Əliyev İli" çərçivəsində idman yarışlarının və beynəlxalq turnirlərin təşkil edilməsi Prezident Administrasiyası, Gənclər və İdman Nazirliyinə, "Heydər Əliyev İli" ilə əlaqədar ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi Prezident Administrasiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Reklam Agentliyi, Heydər Əliyev Mərkəzi, yerli icra hakimiyyəti orqanlarına tapşırılıb.

2023-cü il ərzində Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin, kitabların və monoqrafiyaların nəşri nəzərdə tutulub.

2023-cü il may-iyun ayları ərzində ali təhsildə yüksək akademik göstəriciləri olan tələbələr üçün "Heydər Əliyev təqaüdü"nün təsis edilməsi Prezident Administrasiyası, Elm və Təhsil Nazirliyi, Maliyyə Nazirliyinə həvalə olunub. Habelə 2023-cü il ərzində təhsil müəssisələrində "Heydər Əliyev dərsləri"nin keçirilməsi də qərara alınıb.

### "Heydər Əliyev - 100" yubiley medalı təsis ediləcək

2023-cü il ərzində Prezident Administrasiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi "Heydər Əliyev İli" çərçivəsində sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsini təşkil edəcək.

Azərbaycanın şəhər və rayonlarında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi və abadlıq işlərinin aparılması nəzərdə tutulub.

2023-cü il yanvar-may ayı ərzində Azərbaycan Respublikasının "Heydər Əliyev - 100" yubiley medalının təsis edilməsini Prezident Administrasiyası, Milli Məclis (tövsiyə olunur) gerçəkləşdirəcək.

Habelə 2023-cü il mart-may ayları ərzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markalarının və xatirə nişanlarının buraxılması qərara alınıb.

2023-cü il fevral-may ayları ərzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələrin hazırlanmasını Prezident Administrasiyası, Azərbaycan Mərkəzi Bankı (tövsiyə olunur) həyata keçirəcək.

2023-cü il may ayında Heydər Əliyev Mükafatının təqdimat mərasiminin keçirilməsi Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyası, Prezident Administrasiyası tərəfindən icra olunacaq.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövləti və xalqı qarşısında misilsiz tarixi xidmətlər göstərib. Azərbaycanda 1969-1982-ci və 1993-2003-cü illərdə hakimiyyətdə olduğu illər ərzində bu dahi şəxsiyyət respublikamızın hərtərəfli inkişaf və tərəqqisinə, eləcə də nüfuzlu dövlət kimi dünya ölkələri arasında seçilməsinə nail olub.

2023-cü ilin "Heydər Əliyev İli" elan olunması və gələn il Ulu Öndərin 100 illik yubileyinin Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəyi dahi şəxsiyyətə böyük ehtiramın, yüksək qiymətin əyani göstəricisidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Müdafiə Nazirliyi növbəti dəfə çağırış etdi

Rusiya Federasiyasının sülhməramlı kontingentinin rəsmi məlumatlarında Azərbaycan ərazilərinin adlarının dəfələrlə edilən müraciətlərimizə baxmayaraq, hələ də uydurma erməni toponimləri ilə qeyd olunması çox böyük təəssüf doğurur. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Bir daha xatırladırıq ki, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunun yaşayış məntəqələrinin Azərbaycan toponimlərinə uyğun adlı siyahısı və xəritəsi Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin əvvəlki və hazırkı komandanlığı, eləcə də Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinə Azərbaycan tərəfindən rəsmi qaydada göndərilmişdir.

Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin komandanlığını müvafiq məlumatlarında yaşayış məntəqələrimizin adlarını tərəfimizdən göndərilən rəsmi sənəd və xəritələrə uyğun qaydada düzgün toponimlərlə ifadə etməyə çağırırıq.

Bir daha xüsusi vurğulayırıq ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin 03.12.2022-ci il tarixli rəsmi məlumatında "Dağlıq Qarabağ ərazisi" kimi qeyd olunan ərazi Qarabağ iqtisadi rayonu, "Mardakert" və "Martuni" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adları isə müvafiq olaraq AĞDƏRƏ və XOCAVƏND-dir", - məlumatda qeyd edilib.

# Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdəki monitorinq qrupu Şuşaya qayıdıb

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə keçərək, Xocalıda sülhməramlı qüvvələrin qərargahında sülhməramlıların komandanlığı ilə müzakirələri davam etdiriblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müzakirələr əsnasında Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində aparılan qeyri-leqal iqtisadi fəaliyyətlər çərçivəsində faydalı qazıntıların qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlarla bağlı ciddi narahatlıq və narazılıq bir daha ifadə olunub. Bu xüsusda, faydalı qazıntıların qanunsuz istismarının aparıldığı yataqlarda və müvafiq digər məntəqələrdə monitorinq, əmlakın inventarizasiyası və ekoloji araşdırma işlərinin aparılmasının vacibliyi vurğulanıb.



Dekabrın 3-də saat 18:00 radələrində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları Şuşa şəhərinə qayıdıblar.

Xocalıda sülhməramlı qüvvələrin qərargahında keçirilmiş müzakirələrin nəticəsi olaraq qeyd olunan fəaliyyət istiqamətləri üzrə ərazidə işlərin aparılması üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər aidiyyəti qurumların iştirakı ilə yol xəritəsinin hazırlanmasına başlanılıb.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sorğusu əsasında Müdafiə Nazirliyi Rusiya sülhməramlı qüvvələrinin komandanlığına onların müvəqqəti olaraq yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntıların qanunsuz istismarı və bundan əmələ gələn ekoloji fəsadların araşdırılması və monitorinqi məqsədilə ölkəmizin aidiyyəti qurumlarının mütəxəssislərinin həmin ərazilərə göndərilməsi barədə müraciət edib. Qeyd olunan üç qurumun əməkdaşları dekabrın 3-də saat 11.00-da əraziyə keçid üçün Xankəndi ilə Şuşa şəhəri arasındakı Rusiya sülhməramlı qüvvələrinin nəzarət məntəqəsinə yaxınlaşıb, sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə faydalı qazıntıların qanunsuz istismarı, bundan əmələ gələn ekoloji fəsadların araşdırılması və monitorinqi məqsədilə ekspertlərdən ibarət qrupun həmin ərazilərdə fəaliyyət göstərməsini sülhməramlı qüvvələrin komandanlığı ilə müzakirə ediblər.

# Azərbaycan XİN İrana nota verib

"Azərbaycan Respublikasının ərazilərinə hər hansı bir xarici səfər ölkəmizin milli qanunvericiliyi çərçivəsində müəyyən edilmiş qaydalara, suverenlik və ərazi bütövlüyü prinsiplərinə riayət etməklə həyata keçirilməlidir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə yerli media nümayəndələrinin məsələ ilə bağlı sualına cavabında deyib.

O bildirib ki, İran İslam Respublikası vətəndaşlarının ərazilərimizə qanunsuz keçidi ilə bağlı yayılmış xəbərlərə gəldikdə, məlumata aydınlıq gətirilməsi məqsədilə İranın Azərbaycandakı səfirliyinə müvafiq nota göndərilib.

Hazırda məsələ ilə bağlı qarşı tərəfdən cavab gözlənilir.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Dekabrın 3-ü saat 16:30 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqeyi atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

◆ 5 Dekabr Beynəlxalq Könüllülər Günüdür



# Vətənə və insanlara xidmət məramı

Könüllülük öz iradə və seçimi əsasında heç bir maddi qazanc güdməyən və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. Hazırda dünyada insanların həyat şəraitinin yaxşılaşdırılması üçün təmənnasız əmək sərf edən könüllülərin sayı milyonlarladır.

### Humanizmə xidmət edən fəaliyyət

Könüllü fəaliyyətin əsasını altruizm fəlsəfəsi təşkil edir. Bu fəlsəfə insanlara təmənnasız xidmət göstərilməsini özündə ehtiva edir. Bu aspektdən yanaşdıqda görürük ki, könüllülük birbaşa humanizmə xidmət edir. Ötən əsrin ortalarından dünyada kütləvi sosial fəaliyyətə çevrilən könüllülük ölkəmizin tarixində və adət-ənənələrində tez-tez rast gəlinən, mərhəməti, humanistliyi və həm də vətənpərvərliyi tərənnüm edən fəaliyyətdir. Könüllü olmaq ümid yeri, savab əmələ sahib olmaq, xalqına, vətəninə sosial xidmət etmək deməkdir.

Könüllülük fəaliyyətinin kökündə cəmiyyət üçün faydalı işlər reallaşdıraraq problemlərin həllində iştirak etmək, həyatında dəyişiklik etmək arzusu, özünü inkişaf etdirərək təcrübə toplamaq, yeni dostlar qazanmaq, səninlə eyni düşüncə və amalı paylaşan insanlarla görüşmək yer alır.

BMT Baş Assambleyasının 1985-ci ildə qəbul etdiyi qətnamə ilə hər il dekabrın 5-i Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur.

Azərbaycanda könüllülük fəaliyyəti sahəsində yüksəliş Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldikdən sonrakı dövrə təsadüf edir. 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyinin (indiki Gənclər və İdman Nazirliyi), BMT-nin İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının bu istiqamətdə birgə layihəsi həyata keçirilib.

Prezident İlham Əliyevin diqqət və qayğısı könüllülüyün günümüzdəki inkişaf səviyyəsinə çatmasını təmin edib. 2009-cu ildə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" qanun qəbul etməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında mühüm təkanverici rol oynayıb. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoyub. Sözügedən qanun hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir.

### Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlayıb

Azərbaycanın evsahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışlarının və digər mötəbər beynəlxalq tədbirlərin təşkilində on minlərlə könüllü iştirak edib. Bu tədbirlər nəticəsində ölkəmizin beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik və təcrübəli könüllü bazası formalaşıb.

Azərbaycanda könüllülük hərəkatı isə "ASAN xidmət"dən başlayıb. 2016-cı il dekabrın 28-də 1 saylı Bakı "ASAN Kommunal" mərkəzinin açılışı zamanı Prezident İlham Əliyev demişdir: "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq könüllülər hərəkatı nədir, onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır".

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsi isə ölkəmizdə bu fəaliyyətə göstərilən böyük diqqətdən xəbər verir. 2020-ci ilin "Könüllülər ili" elan edilməsi könüllülük fəaliyyətinin daha da inkişafında mühüm addım oldu.

### Daha böyük uğurlar qazanılacaq

Gənclərimizin potensialını daim diqqətə alan Prezident İlham Əliyev onların iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında işləməsini, gənclərin dövlət təşkilatlarında önə çəkilməsini, bütün dövlət təşkilatlarına könüllülərin cəlb olunmasını tövsiyə edib. Bu tövsiyədən irəli gələrək müxtəlif dövlət qurumlarına könüllülərin cəlb olunmasına başlanılıb və bu iş uğurla davam etdirilir. Bu gün ölkəmizdə "Gənc könüllülər", "ASAN könüllülər", "RİİB könüllüləri", "BİR Tələbə-Könüllülər", "Aqrar İnkişaf könüllüləri", "KOB könüllüləri", "Miqrasiya könüllüləri", "Ədliyyə könüllüləri" və digər qurumlarda müxtəlif könüllülər dəstəsi uğurla fəaliyyət göstərirlər. Bu baxımdan adıçəkilən qrupların timsalında Azərbaycanda könüllülük hərəkatının inkişafını, xüsusən gənclərin fəaliyyətində xüsusi yer tutduğunu görmək mümkündür. Könüllülük fəaliyyəti gənclərin dövlətçilik işində rolunu artırmaqla yanaşı, onların gələcəkdə şəxsi fəaliyyətlərini qura bilmələri üçün də müəyyən imkanlar yaradır, təcrübə əldə etmələrinə və özünə inam qazanmalarına səbəb olur.

Görünən odur ki, könüllülük fəaliyyəti Azərbaycanda geniş yayılaraq cəmiyyətimizin bütün sferalarını əhatə edib. Ölkəmizdə bu fəaliyyətin inkişafına göstərilən yüksək diqqət və qayğı, əldə olunan nailiyyətlər və könüllülərin xidmətləri onu deməyə əsas verir ki, önümüzdəki illərdə Azərbaycanda könüllülər hərəkatı daha da böyük uğurlar qazanacaq.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş olub



Azərbaycan Respublikasının Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat komitəsinin sədri Fərəh Əliyeva və gənclər və idman nazirinin müavini, müsabiqənin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, humanitar sahədə qaliblərin fikirlərini dinləyən Fərəh Əliyeva onların təhsil və humanitar məsələlərlə bağlı suallarını cavablandırıb. Komitə sədri qarşıda duran mentorluq proqramı barədə danışıb. Qaliblər isə öz növbəsində müsabiqənin onlara qatdığı dəyərdən söz açıb, qalibiyyətsonrası həyatlarında və karyeralarında baş verən uğurları paylaşıblar. Təhsil sahəsindən və bu sahədə verə biləcəkləri töhfələrdən söz açan qaliblər dövlət və sosial sahədə ölkəmizin inkişafı naminə çalışmaqdan qürur hissi duyacaqlarını qeyd ediblər. Onlar sosial layihələrdə aktiv şəkildə iştirak etməyə maraqlı olduqlarını bildiriblər. Fərəh Əliyeva isə qaliblərin işğaldan azad edilən bölgələrdə yenidənqurma və inkişafa əvəzsiz fayda verəcəklərinə inandığını vurğulayıb, onları cəmiyyətimizin uğurlu rol modelləri olaraq karyera və təhsil istiqamətində gənclərə dəstək olmağa səsləyib.

İşçi qrupunun rəhbəri Fərhad Hacıyev gələcəkdə bu növ səmərəli görüşlərin mütəmadi təşkil ediləcəyini bildirib.

Qeyd edək ki, müsabiqənin qaliblərindən ikisi görüşə ölkə xaricindən videozəng vasitəsilə qoşulub.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Azərbaycan "Stratcom 22" Sammitində təmsil olunub

Azərbaycan dekabrın 2-3-də Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə İstanbul şəhərində keçirilmiş Beynəlxalq Strateji Kommunikasiya Sammiti - "Stratcom 22"də təmsil olunub.




Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildiriblər ki, "Qeyri-müəyyənlik şəraitində Stratcom" mövzusunda keçirilən tədbirdə müxtəlif ölkələrdən olan dövlət rəsmiləri, özəl və media sektorunun təmsilçiləri, elm və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.

"Stratcom 22" çərçivəsində strateji kommunikasiya ekosistemində regional münaqişələrlə üzləşmə, geosiyasi gərginliklərin yaratdığı hibrid təhdidlər, dezinformasiya, humanitar və ətraf mühit böhranları, informasiya müharibəsi mövzuları müzakirə olunub.

# Yaşar ƏLİYEV: "Ermənistan Azərbaycan ərazisində yeni minalar yerləşdirməklə təcavüzkar siyasətini davam etdirir"

Ermənistan tərəfindən anti-Azərbaycan siyasətin davam etdirilməsi və beynəlxalq hüququn kobud şəkildə pozulması ilə əlaqədar Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin BMT-nin Baş katibinə məktubu və Ermənistan tərəfindən Azərbaycan ərazisində piyadalar əleyhinə yeni minalar yerləşdirilməsi barədə məruzəsi təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Yaşar Əliyevin məktubunda göstərildiyi kimi, Ermənistan Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalar yerləşdirməyi davam etdirməklə, bütün minalanmış sahələr barədə dəqiq və ətraflı məlumat verməkdən imtina etməklə bilərəkdən insanların həyatını təhlükə altına qoyur və münaqişədən sonrakı dövrdə reabilitasiyaya, yenidənqurma işlərinə və humanitar səylərə, habelə keçmiş məcburi köçkünlərin öz evlərinə təhlükəsiz şəraitdə qayıtmalarına əngəl törətməyə çalışır. Bu siyasət nəticəsində münaqişədən sonrakı 2 il ərzində Azərbaycanın 260-dan çox dinc sakini və hərbi qulluqçusu minaya düşərək həlak olub və ya yaralanıb.

Azərbaycanlı diplomat qeyd edir ki, Ermənistanın bu hərəkətləri beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır və məsuliyyət doğurur. Ermənistan mina terrorizminə son qoymalı, bundan çəkinməli, özünün beynəlxalq hüquqa zidd əməlləri ilə vurulmuş ziyanı ödəməli, zərərçəkənlərə tam təzminat təqdim etməli və belə halların təkrarlanmayacağına zəmanət verməlidir.

İnsanların həyatını xilas etmək, regionda sülhü və inkişafı təmin etmək üçün Azərbaycan ərazilərinin minalardan təmizlənməsi üzrə səylərin daha da fəallaşdırılması məqsədilə beynəlxalq dəstəyin də artırılması prinsipial əhəmiyyət kəsb edir. Azərbaycan dünyada minalarla ən çox çirkləndirilmiş ölkələrdən biridir. Bütün münaqişə dövründə Ermənistan Azərbaycanın vaxtilə işğal edilmiş ərazilərində yüz minlərlə mina və digər partlayıcı qurğular yerləşdirib.

BMT-nin Baş katibinə müraciətdə deyilir ki, bu məruzə Ermənistan tərəfindən Azərbaycan ərazisində piyadalar əleyhinə minaların yerləşdirilməsinin davam etməsinə aydınlıq gətirir. Belə ki, bu yaxınlarda Azərbaycanın Kəlbəcər və Laçın rayonlarında minalardan təmizləmə əməliyyatlarının gedişində aşkar edilmiş piyadalar əleyhinə minalar 2021-ci ildə Ermənistanda istehsal edilib və deməli, Ermənistanla Azərbaycan arasında bütün hərbi əməliyyatların dayandırılması barədə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat imzalanandan sonra yerləşdirilib. Həmin sənədə əsasən, Ermənistanın üzərinə öz qoşunlarını Azərbaycandan çıxarmaq öhdəliyi qoyulub. Ermənistan tərəfindən Azərbaycan ərazisində piyadalar əleyhinə yeni minalar yerləşdirilməsi onun təcavüzkar siyasətinin davam etdirilməsinə sübutdur.

Məktubda qeyd edilir ki, Ermənistanın bu hərəkətləri piyadalar əleyhinə minaların mülki əhali üçün yaratdığı humanitar təhlükəni daha da artırır. Çünki bu hərəkətlər Azərbaycanın işğaldan azad edilmiş ərazilərində irimiqyaslı bərpa və yenidənqurma işləri aparılmasına mane olmağa, habelə yüz minlərlə məcburi köçkünün təqribən 30 illik işğaldan və etnik təmizləmələrdən sonra öz doğma yurdlarına qayıtmasının qarşısını almağa yönəlib.

Məruzədə deyilir ki, cari qeyri-texniki və texniki müşahidələrə görə, Gamış dağı və Sarıbaba dağlarını əhatə edən 93 kilometrlik ərazidə piyadalar əleyhinə təqribən 40 min mina yerləşdirilmiş təhlükəli sahələr var. Bundan əlavə, bu yaxınlarda Azərbaycanın Daşkəsən rayonunda Ermənistanda istehsal edilmiş PMN-E tipli




piyadalar əleyhinə minalar aşkar edilib. 2020-ci il avqustun 16-dan oktyabrın 6-dək olan müddətdə Daşkəsən, Kəlbəcər və Laçın rayonlarında 3166 ədəd PMN-E tipli piyadalar əleyhinə minalar aşkar edilib. Onlardan 1671-i Laçında, 935-i Kəlbəcərdə, 560-ı Daşkəsəndə tapılıb. Bu fuqasların əksəriyyəti PMN-E tipinə aid olsa da, aşkar edilmiş və zərərsizləşdirilmiş fuqaslar arasında PMN-2, E-001M və TM-62 tipli minalar da olub.

Bundan əlavə, 2022-ci il oktyabrın 3-də Azərbaycanın Laçın rayonunun Zabux və Sus kəndlərindəki evlərdə və həyətlərdə erməni hərbçiləri tərəfindən quraşdırılmış mina-tələlər aşkar edilib. PMN-E fuqaslarından ibarət olan bu minalar tələ-məftil vasitəsilə işə salınan əl qumbaraları ilə təchiz olunub. Qeyd etmək lazımdır ki, üçtərəfli Bəyanatın 6-cı bəndinə müvafiq olaraq Laçın şəhəri, Zabux və Sus kəndləri 2022-ci il avqustun 26-da Azərbaycana qaytarılıb. Bu ərazilərdə fəal döyüş əməliyyatları aparılmayıb. Lakin Ermənistan öz qoşunlarını və qanunsuz məskunlaşan insanları çıxararkən orada mina-tələlər qoyub. Bu halda Ermənistanın yeganə məqsədi həmin əraziyə qayıdan dinc azərbaycanlı sakinlərə xəsarət yetirmək olub.

Azərbaycan ərazisində aşkar edilmiş minaların və partlayış təhlükəli əşyaların əksəriyyətinin istehsalçısı Ermənistana məxsus, 1991-ci ildə yaradılmış "Ayk-Meq" MMC-dir. Ermənistanın hərbi sənayesi sahəsində mühüm rol oynayan bu şirkət paytaxt İrəvanda yerləşir. Şirkətin istehsal etdiyi PMN-E, PMN-2, POMZ-2, OZM-72, MON-50 və PFM-1 tipli piyadalar əleyhinə minalar 2016-cı ildə Ermənistanda keçirilmiş ArmHiTec2016 müdafiə sənayesi sərgisində nümayiş etdirilib.

Məruzədə daha sonra qeyd edilir ki, Ermənistan tərəfindən minaların harada gəldi basdırılması yenə də dinc sakinlərin ölümünə və əziyyət çəkmələrinə gətirib çıxarır. Son 30 ildə 3336 nəfər (o cümlədən 357 uşaq və 38 qadın) belə minalardan zərər çəkib. 131 hadisə kasetli sursatlarla bağlı olub. 2022-ci il oktyabrın 3-nə olan məlumata görə, üçtərəfli Bəyanat imzalanandan sonra 257 hərbi qulluqçu və mülki şəxs minaya düşüb, nəticədə 44 nəfər ölüb, 213 nəfər, o cümlədən 9 uşaq, 1 qadın və 3 KİV nümayəndəsi yaralanıb.

Erməni hərbçilər tərəfindən yerləşdirilmiş mina-tələlərlə bağlı 2022-ci ilin avqust ayında Laçın rayonunun yaşayış massivlərində baş vermiş yeni hadisələr əsla şübhə yeri qoymur ki, ermənilərin məqsədi azərbaycanlı dinc əhali arasında mümkün qədər çox insan tələfatına səbəb olmaqdır. Ermənistan beynəlxalq təzyiq nəticəsində 2020-ci ilə qədər minalanmış sahələr barədə bəzi məlumatları təqdim edib. Həmin informasiya 390.709 ədəd tank əleyhinə və piyadalar əleyhinə yerüstü mina və digər partlayıcı qurğular barədədir. Lakin bu məlumatlar Azərbaycanın işğaldan azad edilmiş bütün rayonlarının cəmi 5 faizini və Azərbaycanda minatəmizləmə fəaliyyətinin qiymətləndirilməsi haqqında 2022-ci il dekabr ayı üçün Birləşmiş Millətlər Təşkilatının minatəmizləmə xidməti və inkişaf proqramı tərəfindən hazırlanmış hesabatda əks olunmuş yüksək təhlükəli olması təsdiqlənmiş rayonların üçdəbir hissəsindən azdır. Məruzədə deyilir ki, əslində minalanmış sahələr barədə Ermənistan tərəfindən təqdim olunmuş məlumatların yalnız 25 faizə yaxın hissəsi mötəbər olub. Buradan belə nəticə çıxır ki, işğaldan azad edilmiş ərazilərin yalnız 1,25 faizə yaxın hissəsində minalanmış sahələr barədə məlumatı etibarlı hesab etmək olar.

Yaşar Əliyev qeyd edir ki, Ermənistanın baş naziri lovğalanaraq Azərbaycana verilmiş informasiyanın (o vaxta qədər Ermənistan təqribən 200.000 yerüstü mina istehsal edib) Ermənistan tərəfindən yerləşdirilmiş minaların yalnız "cüzi bir hissəsini" təşkil edir. Buna baxmayaraq, Ermənistan minalanmış bütün sahələr barədə informasiyanı açıqlamağa və müvafiq sənədləşdirmə aparılmadan yerləşdirdiyi minaların axtarışında əməkdaşlıq etməyə maraq göstərmir. Avropa İttifaqı tərəfindən təyin edilmiş yerüstü minalar üzrə ekspertin Ermənistan tərəfindən yerüstü minalar barədə məlumatın açıqlanmasına yönəlmiş səyləri heç bir ciddi nəticə verməyib.

Ermənistan tərəfindən Azərbaycan ərazisində piyadalar əleyhinə yeni minalar yerləşdirilməsi Ermənistanın beynəlxalq, o cümlədən üçtərəfli Bəyanatda nəzərdə tutulmuş öhdəliklərinə ziddir. Ermənistan özünün silahlı qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmayıb və Azərbaycana qarşı hərbi əməliyyatlara son qoymayıb. Bunun əvəzinə o, Azərbaycan ərazisində istehkamlar qurmağı və hərbi-mühəndis işləri aparmağı, o cümlədən piyadalar əleyhinə çoxsaylı minalar yerləşdirilməsini davam etdirir. Bu hərəkətlər beynəlxalq hüququn, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq humanitar hüququn yolverilməz şəkildə pozulmasıdır. Ermənistan buna görə məsuliyyət daşıyır.

Məruzənin sonunda qeyd edilir ki, Ermənistanın belə hərəkətləri nə regionda sabitliyə xidmət edir, nə də sülhün və əməkdaşlığın möhkəmləndirilməsinə.

# 31,5 milyard dollarlıq qarşılıqlı investisiya

### Azərbaycanla qardaş Türkiyə arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf dinamikası yüksəlir

Azərbaycan və Türkiyə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəldikdən sonra, demək olar ki, bütün sahələrdə əlaqələrin daha da inkişafının şahidi oluruq. İki ölkə arasında müxtəlif sahələrdə münasibətlər möhkəmlənir, əməkdaşlıq əlaqələri genişlənir.

Azərbaycan və Türkiyə iqtisadi inkişaf, müsbət dinamika müşahidə edilən müxtəlif sahələrə sərmayə qoyuluşunu stimullaşdırır. Hər iki ölkənin sərmayədarları iqtisadiyyatın gəlirli sahələrinə investiya qoymağa maraq göstərirlər. Sıx əlaqələrin, inkişaf edən münasibətlərin nəticəsində Azərbaycan Türkiyə iqtisadiyyatına indiyədək 19,5 milyard ABŞ dolları, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard ABŞ dolları həcmində investisiya qoyub.

Hazırda Türkiyədə 2000-ə yaxın Azərbaycan, Azərbaycanda isə 4100-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir. İki ölkənin ticarət dövriyyəsinin illik dəyəri 2016-cı ildə 2,3 milyard dollar olduğu halda, 2021-ci ildə təqribən 5 milyard dollar olub. 2022-ci ilin yanvar-sentyabr aylarına isə bu rəqəm 4,2 milyard dollar təşkil edib.

İqtisadçı ekspert Eldəniz Əmirov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlər getdikcə genişlənir. Ölkələr arasında ticarət dövriyyəsi də getdikcə artan istiqamətdə davam edir.

Ekspertin sözlərinə görə, Türkiyə Azərbaycanın xarici ticarət tərəfdaşı olaraq ilk üçlükdə qərarlaşmış ölkədir. Bu ölkələr arasında birinin digərinə yatırdığı investisiyanın həcminə baxdıqda görərik ki, Azərbaycan kiçik ölkə olmasına baxmayaraq, Türkiyə iqtisadiyyatına daha çox, 20 milyard dollara yaxın yatırım edib.

E.Əmirov vurğulayır ki, Azərbaycanın iqtisadi spektrdə Türkiyə üçün faydalılıq göstəricisi daha çoxdur. İnvestisiya həcmlərinin hansı istiqamətdə sərf olunmasına gəldikdə, Türkiyə tərəfindən Azərbaycanda müxtəlif insfrastruktur layihələrinə, o cümlədən qeyri-neft sektoruna yatırım edilir. Azərbaycan tərəfindən qoyulmuş investisiyaların böyük həcmi isə daha çox neft emalı sənayesinədir.

İqtisadçı deyir ki, hazırda iki ölkə arasında ticarət dövriyyəsi təxminən 5 milyard dollar civarındadır. Perspektivdə bu məbləğin 15 milyard dollara qədər artırılması planlaşdırılır. Təbii ki, bunun üçün potensial mövcuddur.

E.Əmirov düşünür ki, bu istiqamətdə ciddi işlər görülməlidir: "Eyni zamanda Azərbaycan və Türkiyə arasında logistik imkanların genişləndirilməsi, Zəngəzur dəhlizinin açılmasına ehtiyac var. Bu dəhliz açılarsa, Naxçıvan üzərindən ölkələr arasında logistik xəttin mövcudluğu potensialın artırılmasına imkan yaradacaq".

Ekspert bildirir ki, Türkiyənin işğaldan azad olunmuş ərazilərimizə böyük investisiya yatırmaq imkanı var. Bu gün türk şirkətləri həmin ərazilərə investisiya yatırmaq formasında deyil, bilavasitə dövlət büdcəsi hesabına həyata keçirilən layihələrin icrasında podratçı olaraq çalışırlar. Sülh müqaviləsindən sonra türk şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda yatırım imkanları genişlənəcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və İslami dəyərlərə hörmətsizlik İranın əsl mahiyyətini göstərir

## İslam respublikasından növbəti riyakarlıq

*Əvvəli 1-ci səh.*

Xankəndiyə terror-diversiya qrupunun göndərilməsi isə İslam respublikasının növbəti riyakarlığıdır.

### Tehran Azərbaycanı Suriya, yaxud Livanla səhv salmamalıdır





Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, İranın Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərə diversiya qrupu göndərməsi ilə bağlı faktlar bu ölkənin ikiüzlü və qorxaq siyasi gedişlərinin davamıdır: "Arazboyu hərbi təlimlərlə və Azərbaycandakı xəyanətkar çuğulların vasitəsi ilə heç bir nəticə hasil olmadığını görən İran özünün ən yaxşı bacardığı işə, terrora əl atmalı olub. Sirr deyil ki, İran özlüyündə terror dövlətidir və dünyanın əksər dövlətləri və təşkilatları Tehranı məhz terrorçu qruplaşmalar yetişdirdiyinə, terrorçulara dəstək verdiyinə və dövlət səviyyəsində terror aktları sifariş və realizə etdiyinə görə açıq formada siyahılara salıb, sanksiyalara məruz qoyub.

Əlbəttə, İranın Xankəndiyə terrorçu diversantları göndərməsi bizdə narahatlıq doğurur, amma bu narahatlığımız daha çox Tehran-Bakı münasibətlərində ziddiyyətlərin dərinləşməsi ilə bağlıdır".

Deputat qeyd edib ki, Azərbaycan İranın göndərdiyi 14 nəfərlik diversiya qrupunun üzvlərinin hər birinin hətta şəxsi məlumatlarına qədər informasiyalara malikdir: "İnformasiya və təhlükəsizlik tədbirləri baxımdan Azərbaycanın xüsusi xidmət orqanları bölgədə əməliyyat şəraitinə nəzarət etməklə hər kəsdən, o cümlədən də İranın təxribatlarından çox öndədir. Tehran Azərbaycanı Suriya, yaxud Livanla səhv salmamalıdır. Təmkinli davranışlarımızın fonunda səbrimizi sınamasınlar, diversantlar deyil, onları ezam edən əmmaməli terror təşkilaçılarını belə əli-qolu bağlı Bakıya gətirmək gücümüz var.

İran başa düşsün ki, Azərbaycana qarşı mövcud ritorikası hazırkı ixtişaşlar fonunda onları nəinki xilas etməyəcək, əksinə, terror dövlətinin çöküşünü sürətləndirəcək".

B.Məhərrəmovun sözlərinə görə, baş verənlər digər tərəfdən Rusiya süıhməramlılarının missiyasından kənar fəaliyyətlərlə məşğul olduğunu, sülh üçün təhdidə çevrilən qeyri-qanuni tədbirlərə şərait yaradıldığını göstərir: "Hesab edirəm ki, Rusiya Müdafiə Nazirliyi bu məsələyə aydınlıq gətirməlidir. Əks halda Rusiya hərbçiləri hər kəsdən çox elə Rusiya Prezidentinin imzasına hörmətsizlik etmiş olurlar".

### İranın islam təəssübkeşliyindən danışmağa mənəvi haqqı yoxdur

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, İranın Qarabağa diversiya qrupu göndərməsi bu ölkənin Azərbaycana qarşı riyakarlığının və düşmənçiliyinin növbəti təzahürüdür: "İran rəsmiləri bir tərəfdən Azərbaycanın İranın ürəyi olduğunu bildirir, digər tərəfdən isə Ermənistana hər cür dəstəklərini davam etdirirlər.

Azərbaycan İranla münasibətləri daim qorumağa çalışsa da, cənub qonşumuz hər zaman Ermənistanın yanında olmağı, ona dəstək verməyi üstün tutub. Qarabağa diversiya qrupu göndərməklə özünün müsəlman ölkəsi olduğunu iddia edən İran azərbaycanlıları ermənilərin əli ilə qətlə yetirmək niyyətlərini göstərir. İran bu gün dünyanın bir çox yerlərində həyata keçirdiyi riyakar siyasətini bölgəmizdə də davam etdirir".

Deputatın sözlərinə görə, İranın əvvəlki addımları, eləcə də müsəlmanları qətlə yetirmək niyyəti ilə Qarabağa diversiya qrupu göndərməsi bir daha göstərir ki, İranın islam adından, islam təəssübkeşliyindən danışmağa heç bir mənəvi haqqı yoxdur: "Bütün bunlardan ölkəmizdəki İran təəssübkeşləri də ciddi nəticə çıxarmalıdırlar. İranın bizə qarşı heç zaman səmimi olmadığını son baş verən hadisələr də bir daha təsdiq edir. Əgər İran səmimi olsaydı, Ermənistanın deyil, müsəlman ölkəsi olan Azərbaycanın yanında olardı. Biz dinimizi sevirik, hər zaman da sevəcəyik. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı islama, müsəlmanların birlik və həmrəyliyinin gücləndirilməsinə öz töhfəsini verir və bu, hər zaman da belə davam edəcək".

C.Məmmədov onu da qeyd edib ki, əgər İran rəsmiləri bu çirkin addımlarla Azərbaycanın bölgədə yaratdığı yeni reallığı dəyişə biləcəklərini düşünürlərsə, yanılırlar: "Dövlətimizin mövqeyi hər zaman olduğu kimi prinsipial və qətiyyətlidir".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

## Erməni dəyirmanına su tökən İran





*Əvvəli 1-ci səh.*

### *Tehranın təxribatçı əməlləri ifşa olunur*

İranın erməni dəyirmanına su tökən mənfur əməllərindən biri də yaxın günlərdə Azərbaycan tərəfindən ifşa olundu. Məlum oldu ki, noyabrın 24-də İranın terror-təxribat qrupunun 14 üzvü qanunsuz olaraq Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə keçib. O da aydın olub ki, həmin şəxslərin 12-si xeyli erməninin yaşadığı Huzistan vilayətinin İze şəhərindəndir. Artıq qrup üzvlərinin adları məlum olsa da, həmin şəxslərin sənədlərindəki adların saxta olması ehtimalı da yüksəkdir.

Heç şübhəsiz, Laçın yolu ilə qanunsuz olaraq Xankəndiyə gələn "İran vətəndaşları" İran xüsusi xidmət orqanlarının əməkdaşlarıdır və onlar bura məhz Tehran tərəfindən Azərbaycana qarşı hansısa təxribatlar törətmək məqsədilə göndəriliblər.

Sual oluna bilər ki, görəsən tarixi qonşu və dinbirliyimiz olan bu "islam" ölkəsinin Azərbaycana qarşı sərgilədiyi düşmənçilik siyasətinin, ölkəmizə tükənməz nifrətinin qaynağı nədir?! Bəlkə İran elə hesab edir ki, hazırda daxilində baş verən inqilab qoxulu etirazların səbəbi Azərbaycandır?

Xeyr, əsla! Orada baş verənlər islam bayrağı altında onilliklərdir insanları əsarət içində boğan, əzən, qətl edən rejimə xalqın etirazıdır.

Onların arasında azərbaycanlılar da var. Və o da başqa faktdır ki, Azərbaycan dövləti azərbaycanlıların əzilən, tapdanan hüquqlarını qorumağa hər an hazırdır.

Bir neçə gün əvvəl Bakıda keçirilən "Orta Dəhliz boyunca: siyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyev bəyan etmişdir ki, biz öz həyat tərzimizi, dünyəvi inkişafımızı, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır.

Elə həmin konfransda Azərbaycan Prezidenti başqa bir məqama da toxunaraq demişdi: "Biz bütün qonşularımızla sülh və dostluq münasibətləri istəyirik. Eyni zamanda biz həmişə öz ləyaqətimizi, müstəqilliyimizi, həyat tərzimizi müdafiə edəcəyik və heç bir xarici aktora öz standartlarını və iradəsini hökumətimizə və xalqımıza tətbiq etməyə imkan verməyəcəyik".

### *İranın islamofob davranışı*

Ermənistanın ərazi bütövlüyünü özlərinin "qırmızı xətt"i saydıqlarını bar-bar bağıran İran rəsmiləri, yüksəkvəzifəli şəxsləri çox qəribədir ki, 30 il ərzində bir dəfə də olsun Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, yurdlarını viran qoyması, talaması, yüzminlərlə əhalisini didərgin salması, vətəndaşlarımızı əsir götürməsi, xalqımıza qarşı soyqırımları törətməsi barədə danışmayıb.

Özünün İslam respublikası olduğunu iddia edən, əslində isə törətdiyi qanlı terror əməlləri ilə anılan İran Ermənistanın Qarabağ və Şərqi Zəngəzurda digər tarixi, mədəni abidələr bir yana, islam irsinə qarşı həyata keçirdiyi vandallıq aktları barədə də heç bir mövqe ortaya qoymayıb. Erməni vəhşiləri tərəfindən tarixi torpaqlarımızda 60-dan çox məscidimiz dağıdılıb, xalqımıza məxsus bu müqəddəs məkanlar təhqir olunaraq onlardan donuz tövləsi kimi istifadə olunub. Amma islam bayrağı daşıyan İran Ermənistanın bu islamofob davranışına, barbarlığına susqunluqla yanaşıb. Heç zaman Azərbaycan ərazilərindəki islam irsini özünün "qırmızı xətt"i elan etməyib.

### *Bu da Azərbaycanın "qırmızı xətti"dir*

Azərbaycanın zəfərindən sonra Ermənistanla olan çox cüzi, on kilometrlərlə ölçülən məsafəni əhatə edən sərhədini "qırmızı xətt"i hesab edərək Azərbaycanla 765 kilometrlik sərhədində hərbi təlimlər keçirməyə qərar verməsi isə İranın başqa bir siyasi oyunbazlığını, ölkəmizə qarşı düşmən mövqeyini ortaya qoyur.

Amma Azərbaycanın da "öz qırmızı xətti" var. Azərbaycan milli mənafelərini təhdid altında qoyan bütün düşmənlərinə, eləcə də ermənipərəst İrana qarşı mübarizə aparmağa və onların layiqli cavablarını verərək yerlərində otuzdurmağa hazırdır.

Necə ki, noyabrın 25-də keçirilən sözügedən beynəlxalq konfransda İranın Azərbaycanla sərhəddə hərbi təlim keçirməsi ilə bağlı Azərbaycan Prezidenti demişdir: "Biz də onlardan qorxmadığımızı nümayiş etdirmək üçün İran sərhədində hərbi təlimlər təşkil etməli olduq. Biz onlara deyirik ki, onlardan qorxmuruq".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Tehran Azərbaycanı təhdid edə bilməz

### Əks təqdirdə qarşılarında soydaşlarımızı görəcəklər

El arasında belə bir deyim var: "Düşmənimin düşməni, mənim dostumdur". Bu, bir münasibətdir. Hətta belə deyək ki, siyasi mövqedir. Bu fikirlər durduğun və duracağın yerin qəti olaraq istiqamətini müəyyən edir.

İstər-istəməz belə bir sual yaranır: bəs onda düşmənimizin dostu nəyimiz olur? İllərdir ki, Ermənistan bizimlə açıq düşmənçilik edir. Bu düşmənçiliyin nəticəsi olaraq, bir milyona yaxın vətəndaşımız ev-eşiyindən didərgin salınaraq olmazın əzablar çəkib, müsibətlər görüb. Ortalıqda qan, insanlığın faciəsi olan Xocalı soyqırımı var...

İllərdir ki, özünü üzdə müsəlmanların hamisi, onların müdafiəçisi kimi təqdim etməyə çalışan, qardaşlıqdan dəm vuran, 40 milyondan çox soydaşımızın yaşadığı İran ikiüzlü siyasətini, ermənipərəst mövqeyini açıq-aydın nümayiş etdirir. Atalar gözəl deyib ki, "qonşu paxıl olmasa, bağ çəpəri neylər?" Nə yazıq ki, olduqca belə hiyləgər, məkrli qonşu ilə əhatə olunmuşuq. Ermənistanın vandallığından, barbarlığından danışanda vandallıqda onlardan da bir qədər də irəli gedən İranın Azərbaycana vurduğu zərbədən, etdikləri riyakarlıqdan danışmaya bilmərik. 1992-1993-cü illərdə İran İnqilabi Keşikçiləri Korpusunun general-mayoru Qasım Süleymaninin Ermənistan ordusu tərəfindən Əsgəran istiqamətində ordumuza qarşı xüsusi əməliyyatlar keçirməsi barədə xəbərlər hələ də ortalıqda dolaşmaqdadır. Deməli, Ermənistan İranla birləşərək işğalçılıq niyyətlərini birgə həyata keçirib. Hələ bu azmış kimi, Ermənistanın işğal etdikləri ərazilərdə İran "göreşənlik" edərək söküntü işləri aparıb, ev-eşiklərimizi viran qoyub. 30 il ərzində işğal altındakı ərazilərimizdə erməni və iranlı "iş" adamları narkoplantasıyalar salaraq ərazilərimizi "ölü" zonaya çeviriblər. Eyni zamanda işğal altındakı ərazilərdən narkotrafik kimi istifadə ediblər. Doğru deyiblər ki, od olmayan yerdən tüstü çıxmaz.

Tüstü demişkən. 2020-ci ildə ordumuz işğal edilmiş torpaqlarımızı azad etmək məqsədi ilə əks-hücum əməliyyatlarına başlayanda ilk tüstü verən dövlətlər sırasında Fransa və İran oldu. İrandan Ermənistana silah daşınması, pilotsuz uçuş aparatlarının verilməsi inkarolunmaz faktdır! Ordumuzun qələbəsini, İranda yaşayan soydaşlarımızın münasibətini görən molla rejimi "iş-işdən" keçəndən sonra "Qarabağ müsəlman torpaqlarıdır" kimi bəyanat verməyə məcbur oldu. Amma İran birmənalı olaraq Qarabağ Azərbaycandır demədi. Hələ bu harasıdır? 44 günlik müharibə zamanı İran öz ordusunu ölkəmizin sərhədlərinə toplayıb "təlimlər" keçməyə başladı, silahlar Azərbaycan tərəfə tuşlandı. Düzdür, İranın öz ərazisində, sərhədləri çərçivəsində nə edəcəyini və necə davranacağını müstəqil dövlət kimi özü müəyyənləşdirir. Hətta kiminlə dost, kiminlə düşmən olacağını müəyyən etmək də öz hüququdur. Amma özünü dünyada müsəlmanların hamisi, müdafiəçisi kimi təqdim edib dildə "sionist rejimi" ilə mübarizə aparırıq demələri hərbi təlimlərinin adını şərti olaraq "Arazı keçmə" əməliyyatı adlandırmaları yolverilməzdir. Xatırladaq ki, Ermənistan ordusu üzərində qələbəmizdən sonra İranla sərhədlərimizdə üç dəfə hərbi təlimlər keçirib. Molla rejimi unudur ki, biz İranın təhdid edə biləcəyi ölkə deyilik. 44 günlik müharibədən sonra İran dağlardan Ermənistana yol çəkmək haqqında planlar cızırdı... İran Şərqi Zəngəzur dəhlizinin əleyhinə gedir, Ermənistanı silahlandırmaqdan çəkinmir, Ermənistanda konsulluq açır. Amma unudur ki, Ermənistanla birləşib əleyhimizə çirkin siyasət apara bilməz. Buna Cənubi Azərbaycanda yaşayan, dili, adət-ənənəsi bir, illərdir ayrılıq həsrəti çəkən soydaşlarımız da imkan verməz. Əslində İranı, molla rejimini qorxudan da elə budur. İllərdir əsarətdə saxladıqları 40 milyon insana öz dillərində oxumaq üçün məktəb açmamaları, mədəni muxtariyyət verməmələri, gözlərini qorxudub kölə halına saldıqları böyük bir xalq artıq oyanıb. Qonşuluqda qüdrətli bir türk dövləti var. Azərbaycanın güclü olması İrana sərf etmir. Ona görə də Ermənistanı özünə dost, müttəfiq bilib məkrli siyasət yürüdür. İran yaxşı bilir ki, 1989-cu ildə keçmiş SSRİ zəifləyəndə imperiyanın sərhədlərini ilk olarq azərbaycanlılar sökdülər. Bunun rəmzi olaraq indi hər il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilir. Molla rejimi unutmamalıdır ki, Azərbaycana qarşı apardıqları bu riyakar siyasət bir olan xalqı daha da yaxınlaşdırır.





Bu gün xalqın etirazı, kütləvi iğtişaşlar, nümayişlər bütün İranı bürüyüb. Bəzən insanlar küçələrə üçrəngli zəfər bayrağımızla çıxır, nümayişçilər, bütün azərbaycanlıların mənəvi hamisi, türk dünyasının liderlərindən biri İlham Əliyevin portretlərini qaldırırlar. İran rejimi əgər sonunun daha tez çatmasını istəmirsə, Azərbaycana qarşı riyakar siyasətindən əl çəkməlidir.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## İran erməni terrorçularını dəstəkləməkdə davam edir

Dövlətimizin ərazi bütövlüyünü sözdə dəstəkləyən, Azərbaycan və İran xalqları arasında tarixi, dini və mədəni bağlardan daim söhbət açan Tehran erməni terrorçuları ilə əməkdaşlığını davam etdirir.

Xəbər verildiyi kimi, erməni terrorçusu, ASALA-nın keçmiş üzvü Martiros Jamkoçyan İrəvanınYerablur panteonunda olarkən Ermənistanın "Hraparak" qəzetinə müsahibə verib və orada məşhur ekstremist Monte Melkonyanla İran xüsusi xidmət orqanları arasında əməkdaşlıq faktlarını açıqlayıb. O bildirib ki, 1992-ci ilin yazında Monte ilə birlikdə Xocavənddə azərbaycanlı kəndlərinin "təmizlənməsi" ilə məşğul olublar.

Həmin il mayın 8-də Şuşanı da məhz İranın vasitəçilik mərhələsində itirdiyimiz yaddaşlardan silinməyib...

Bu günlərdə isə Qarabağ iqtisadi rayonunda müvəqqəti dislokasiya olunmuş Rusiya sülhməramlıları növbəti dəfə öz vəzifələrini pozaraq, 14 nəfər əcnəbinin Azərbaycan ərazisinə keçidini təmin ediblər. Məlumata görə, İran vətəndaşları olduqları bildirilən diversantlar noyabrın 24-də saat 13:00-14:00 radələrində "Mercedes-Benz" markalı avtomobildə (seriya nömrəsi 34-QA-444) sülhməramlıların postunu rahat şəkildə keçərək Xankəndiyə gəliblər və hazırda da oradadırlar. İranlıların adları da artıq məlumdur: Mohmadi Vahab Mehr Əli, Heydari Abdullah Alah Ram, Mohmadi Dariuş Avaz, Əmiritolmarani Elza Məhəmməd, Fərzad Nader Salahşuri Douraki, Məhəmməd Aref Hosseyn, Almasian Nejad Ebrahim Mohammad, Mohmadi Abdollah Mehr Əli, Mohmadi Nəsrullah Mehr Əli, Safari Hosseyn Hatəm, Kuravand Taxt Kerrot Əlişir Hüseyn, Məhəmməd Omid Mehr Əli, Məhəmmədi Muxtar Bar Əhməd, Salahşuri Douraki Kəramət Nader.

Eyni zamanda bu anti-Azərbaycan hərəkətlərilə Rusiya sülhməramlıları bir daha göstərdilər ki, onlar əslində müvəqqəti olaraq "nəzarət etdikləri" əraziyə ümumiyyətlə nəzarət etmirlər. Artıq şübhə yoxdur ki, Azərbaycan toponimlərinin hər gün təhrif edilməsi, mənasız və boş bəyanatların yayılması ilə məşğul olan sülhməramlıların ciddi məsuliyyətə cəlb edilməsinin vaxtı yetişib.

Bildirilir ki, 14 nəfərdən 12-si İranın eyni bölgəsindən - ölkənin cənub-qərbindəki İze şəhərindən gəlib. Qeyd olunur ki, İzenin də daxil olduğu xuzistan bölgəsinin əhalisinin əksəriyyətini ermənilər təşkil edir və erməni dili burada danışılan əsas dillərdən biridir. Bəzi məlumatlara görə, bu şəhərdə İran xüsusi xidmət orqanlarının terror təxribatları üzrə ixtisaslaşmış gizli bazası yerləşir.

Bəs 14 nəfərlik qrup gizli səfərlə Azərbaycanın Qarabağ bölgəsinə hansı məqsədlə gəlib? "Caliber.az" xəbər verir ki, mövcud məlumata görə, iranlılar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə özlərini çox rahat hiss edən quldurlar üçün təxribat və terror təlimləri keçirmək, həmçinin konkret diversiyalar hazırlamaq üçün göndəriliblər. Bundan əlavə, onların Qarabağda qalan qruplara İran istehsalı olan sursatlardan istifadə etmək üçün təlim keçə biləcəkləri də bildirilir.

Bundan əvvəl isə Qarabağ iqtisadi rayonuna mütəmadi olaraq bəzi qonşu ölkələrdən silah daşındığı barədə dəfələrlə məlumatlar daxil olub.

Ekspertlərin fikrincə, görünən odur ki, hələ də 44 günlük müharibənin nəticələri ilə barışa bilməyən və bölgədəki nüfuzunu itirməkdə davam edən Tehran rejimi hazırda müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarətində olan ərazini Azərbaycana qarşı terror arenasına çevirmək planı üzərində işləyir. Bu anti-insani planların qarşısını almaq üçün isə təxirəsalınmaz preventiv tədbirlər həyata keçirməklə yanaşı, hamının ayıq-sayıq olması son dərəcə zəruridir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Fransa Ermənistanın timsalında terroru dəstəkləyir

## Fransa beynəlxalq prinsiplərə hörmətsizlik edir

### Onların çirkin siyasi aksiyalarının Azərbaycana heç bir təsiri yoxdur

**Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi ilk gündən - xüsusilə Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətdə olduğu illərdə dünya dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına və əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm vermişdir. Cənab İlham Əliyev də bu siyasəti böyük uzaqgörənliklə həyata keçirir və beynəlxalq aləmdə ölkəmizin qazandığı uğurlar bunu bir daha təsdiqləyir. Azərbaycan Prezidenti Fransa dövləti ilə münasibətlərdə də sağlam mövqedə olmuş və əməkdaşlığın qarşılıqlı, milli mənafelər zəmnində davam etdirilməsinə çalışmışdır.**



Çox təəssüf ki, Fransanın hakim dairələri, eləcə də bu ölkənin Prezidenti Emmanuel Makron ölkəmizin rəhbərinin xoş məramlarını düzgün qiymətləndirməmiş, Azərbaycan ərazilərini işğal edən və uzun illər əsarəti altında saxlayan Ermənistanın yanında olduğunu nümayiş etdirmiş, bütün hallarda təcavüzkara dəstək vermişdir.

44 günlük müharibə zamanı Makronun təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasının iki iclasının çağırılması, Azərbaycanın əleyhinə qətnamələrin qəbul edilməsinə cəhdlərin göstərilməsi Fransanın düşmənçilik mövqeyini ortaya qoysa da, Azərbaycan hadisələrə yenə də soyuqqanlı yanaşmışdır. Ancaq Makronun Ermənistanı açıq-aşkar müdafiə etdiyini dilə gətirməsi, bəyanatlarında dövlətimizin ünvanına təhqiramiz ifadələr işlətməsi onun mövqeyinə bir daha tam aydınlıq gətirmiş, Azərbaycanı cavab tədbirləri görməyə vadar etmişdir.

Makronun təşəbbüsü və tapşırıqları əsasında Azərbaycana qarşı çirkin siyasi aksiya Fransa Senatı və Milli Assambleyası tərəfindən davam etdirilməkdədir. Fransa Milli Assambleyasının Azərbaycan əleyhinə qəbul etdiyi bədnam və qərəzli qətnamə Azərbaycandan əvvəl Fransanın özünün milli maraqlarına ziddir. Bu qətnamə ölkəmizə qarşı düşmənçiliyin sistemli, düşünülmüş şəkildə həyata keçirilməsinin göstəricisidir. Son illərdə erməni lobbisinin əsirinə çevrilən Fransa rəhbərləri və bu ölkənin əksər parlament üzvləri öz çirkin əməlləri ilə dünyaya sübut etdilər ki, onlar öz xalqlarının taleyi barədə deyil, vəzifədə qalmaq, mənfəət əldə etmək barədə daha çox düşünürlər. Bu gözləniləndir. Çünki təcavüzkar təcavüzkarın yanında olmalıdır, qatil, cəllad faşisti - zalımı dəstəkləməlidir.

Fransanın dünyanın bir çox ölkələrinin və xalqlarının başına gətirdiyi müsibətlər, faciələr, soyqırımları tarixən Ermənistana örnək olub. Fransanı və Ermənistanı birləşdirən, "bacı" edən onların faşist xisləti, təcavüzkarlıq əməlləridir.

Senatın və Milli Assambleyanın qəbul etdiyi qətnamələrə gəldikdə isə bu sənədlər riyakarlığın, siyasi əxlaqsızlığın, beynəlxalq normalara, ilk növbədə Fransa hakimiyyətinə və xalqına hörmətsizliyin ifadəsidir. Çünki bu sənədlərdə guya Ermənistan ərazilərinin işğal edilməsi, Qarabağda yaşayan ermənilərin təhlükə ilə üzləşməsi, tarixi erməni abidələrinin məhv edilməsi barədə əksini tapan faktlar tam əsassızdır. Belə ki, Azərbaycan Ermənistan ərazilərini işğal etməmiş, əksinə, öz torpaqlarını işğaldan təmizləmişdir. Bu, Azərbaycanın haqqıdır, BMT Təhlükəsizlik Şurasının uzun illər yerinə yetirilməyən dörd qətnaməsinin həyata keçirilməsidir. Otuz il düşmən tapdağı altında olan torpaqlarımızın, viran qoyulan şəhər və kəndlərimizin azad edilməsi Azərbaycan xalqının və dövlətinin iradəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş siyasətinin, qətiyyətinin, ordumuzun gücünün, xalq-iqtidar birliyinin və həmrəyliyinin parlaq nəticəsidir. Bu qələbəyə kölgə salmaq, torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda mübarizə aparan dövlətə və xalqa qara yaxmaq, əslində, Fransanın düşmənçiliyinin və beynəlxalq normalara etinadsızlığının nümunəsi kimi qiymətləndirilir.

Azərbaycanda yaşayan ermənilərin həyatı üçün heç bir təhlükə yoxdur və uzun illər də olmamışdır. Xalqımız yalnız təcavüzkar erməniləri zərərsizləşdirir, onlara qarşı amansızdır. Bu gün ölkəmizdə 30 mindən çox erməni yaşayır və onlar özlərini çox sərbəst hiss edirlər. Qarabağda yaşayan ermənilərin də həyatı üçün heç bir təhlükə yoxdur. Onlar Azərbaycan vətəndaşlarıdır və qanunlarımızı qəbul etməklə rahat və sərbəst yaşamaq imkanlarına malikdirlər. Əks təqdirdə separatçı ermənilər haqqında lazımi ölçü götürülməsi qaçılmazdır.

Ermənilər tarixən Qarabağda yaşamadıqlarına görə, onların bu ərazilərdə tarixi abidələri mövcud ola bilməz. Bəzi abidələr ermənilər tərəfindən saxtalaşdırılmışdır ki, onlar da qədim alban abidələridir. Dövlətimiz tərəfindən bu abidələrin qorunması isə daim diqqət mərkəzində saxlanılır. Azərbaycanın işğal altında olan ərazilərindəki 67 məsciddən 65-ni məhv edən, mədəni abidələri dağıdan ermənilər olub və otuz il bu vəhşiliklər davam etdirilib. Çox təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun üzvü Fransa heç vaxt bunları görməmiş və lazımi münasibət bildirməmişdir. Halbuki o vaxtlar münaqişənin nizamlanmasına məsul olan bir dövlət kimi Fransa bunu görməli və təcavüzkara lazımi təsir göstərməli idi. Ancaq Fransa heç nə etmədi, əksinə, Ermənistana dəstək verdi, bütün hallarda istər işğal, istərsə də müharibə getdiyi 44 gün ərzində Ermənistanın tərəfində olduğunu açıq-aydın nümayiş etdirdi.

Fransanın qanunverici orqanlarında qəbul edilmiş qətnamələr də bu dəstəyin davamıdır. Ancaq bu qətnamələrlə Azərbaycana təsir etmək, onu haqlı mübarizəsindən dayandırmaq, milli maraqlarımızın ziddinə getməyə məcbur etmək mümkün deyildir.

Siyasi əhəmiyyət daşımayan bu sənədlər yalnız Ermənistanı uçuruma yuvarlamağa, Cənubi Qafqazda sülhə və əmin-amanlığa mane olmağa, müharibəni yenidən qızışdırmağa xidmət edir.

Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin, xalqımızın və ordumuzun mövqeyi bütün dünyaya bəllidir. Bu, Azərbaycanın bütövlüyü və sərhədlərimizin toxunulmazlığıdır. Azərbaycan xalqı tarixi ədaləti bərpa edib, düşmənin başını əzib, haqqını alıb və bundan sonra da mübarizədən geri çəkilməyəcəkdir. Fransa, Ermənistanı müdafiə edən digər dövlətlər bunu yaxşı bilirlər. Odur ki, saxta sənədlər qəbul etməklə özlərini aldatmamalıdırlar.

Onun-bunun əlində oyuncağa çevrilən Ermənistan hakimiyyəti isə quru kağızlara deyil, reallıqlara arxalanmalı, düşdüyü vəziyyətdən nəticə çıxarmalı, erməni xalqını yeni fəlakətlərə sürükləməməlidir. Onlar Azərbaycanın gücünü, qüdrətini gördülər, xalqın birliyinin və əzəmətinin şahidi oldular və təslimçilik aktına qol çəkdilər. Belə olan halda gələcəkləri barədə ciddi düşünməlidirlər.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

## Azərbaycan Avropanın enerji xəritəsini dəyişir

### İlham Əliyevin qlobal layihələrinin uğurlarını həzm edə bilməyən Fransanın riyakar siyasəti heç bir nəticə verməyəcək

*Əvvəli 1-ci səh.*



Azərbaycanın qitədə enerji təhlükəsizliyinin təminatında mühüm rol oynaması ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Məhz elə buna görədir ki, dünyanın hətta ən qüdrətli dövlətləri belə enerji sahəsində Azərbaycanla əməkdaşlığa xüsusi önəm verməklə yanaşı, bundan, sözün əsl mənasında, qürur hissi keçirdiklərini də açıqlayırlar.

Bu prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi layihələr Avropanın enerji xəritəsini tamamilə dəyişir. Çünki Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb.

Hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. Bu il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

İlham Əliyevlə anlaşma memorandumunu imzalayan Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin fikirləri də bunu bir daha təsdiqlədi: "İmzaladığımız bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir. Bizim anlaşma memorandumumuzun üç məqamını vurğulamaq istəyirəm. Birincisi, biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, beləliklə, Rusiyadan qaz təchizatının həcmini azaldacağıq və Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik".

Məhz Avropanın qarşılaşdığı çətin vəziyyətdə Fransa parlamentinin Milli Assambleyasının qəbul etdiyi qətnaməyə ("Azərbaycan qazı və neftinin idxalına qadağa tətbiq edilməsi") nə ad vermək olar?!

Bir tərəfdə acınacaqlı durumda qalaraq əhalisinə elektrik enerjisindən istifadə zamanı israfçılığa yol verməməyi xahiş edən, hətta evdə olarkən işıqları, mavi qazı söndürməyi məsləhət bilən Avropa dövlətləri, digər tərəfdə Azərbaycan qazından imtinaya çağıran fransız parlamentariləri...

Fransa Milli Assambleyasının Azərbaycana qarşı qəbul etdiyi qərəzli qətnamə ilk növbədə beynəlxalq hüququn fundamental prinsiplərinə hörmətsizlik, siyasi riyakarlıqdır.

Belə çıxır ki, fransız deputatlar öz xalqının qışda evlərində soyuqdan donmasına razıdır, təki Azərbaycan qazının idxalına qadağa qoyulsun...

Amma görün, İlham Əliyev belə qlobal problemlər dövründə hansı humanist addımlar atıb və bu gün də həmin siyasət davam edir. Həm Qoşulmama Hərəkatının Sədri kiimi, həm də tarixinin ən qüdrətli Azərbaycanının Prezidenti kimi qlobal pandemiya dövründə İlham Əliyevin irəli sürdüyü təklifləri, təşəbbüsləri, etdiyi yardımları sadalamaqla bitirmək olmaz. İlham Əliyevin humanist siyasətinə Avropanın liderləri həsəd aparırlar, onun haqqında səsləndirdikləri fikirlərdə bunu dəfələrlə etiraf edirlər.

Çox uzağa getməyək, ötən ayın 23-də İlham Əliyevin Serbiyaya səfəri zamanı bu ölkənin Prezidenti Aleksandar Vuçiçin səsləndirdiyi fikirlərə diqqət edək: "Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır. Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsada, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq. Bu, bizim üçün həqiqətən də vacibdir".

Macarıstanın Baş naziri Viktor Orbanın söylədiyi fikirlərə də nəzər yetirək: "Mən qardaşım Prezident İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Çünki Azərbaycan bizim üçün yeganə real şaxələndirmə şansıdır. Qardaşım İlham Əliyevə həmçinin bizim Azərbaycan üçün "yaşıl enerji"ni Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan əməkdaşlığına gətirmək təşəbbüsümüzü tamamilə dəstəklədiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Mən bu əməkdaşlığa çox ümid bəsləyirəm".

Azərbaycan Prezidenti haqqında həqiqi və xoş sözlər söyləyən liderlərin sayını istənilən qədər artırmaq olar. Bütün bunlar bir daha göstərir ki, İlham Əliyev tam müstəqil siyasət yürüdən, həmçinin sözünə, vədinə, prinsiplərinə sadiq olan liderdir. Özünün dediyi kimi, sözü imzası qədər keçərlidir.

Amma terrorçu Ermənistana havadarlıq edən, Qafqazda sülhün bərqərar olunmasını istəməyən Emmanuel Makronun nəinki Avropada, heç öz ölkəsində belə hörməti yoxdur. Bunu ölkəsində keçirilən etiraz aksiyaları da təsdiqləyir.

Əlbəttə ki, Fransa parlamentinin bu qərəzli qətnaməsi Avropa İttifaqının üzvü olan digər dövlətlər tərəfindən qəti şəkildə rədd ediləcək və ermənipərəst fransızların qəbul etdikləri kağız parçasının yeri ancaq zibil qutusu olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## "Dost dosta tən gərək..."

### Yaxud qardaş ola bilməyən "bacı"ların ortaq "dəyər"ləri

**Tarixdə ilk müstəmləkə imperiyaları Portuqaliya, İspaniya və Hollandiya sayılır. Sonradan İngiltərə və Fransa da onların sırasına qoşulmuşlar. Bəs bu imperiyalar işğal etdikləri əraziləri (ölkə və ya dövlət, yaxud xalq yazmırıq, çünki onlar müstəmləkəçilər üçün yalnız ərazi olub) hansı qanunlarla idarə etmişlər? Təəssüf ki, heç bir qanunla. Çünki qaliblər kimi, güclülər də mühakimə olunmurlar.**

Əvəzində hər imperiya işğal etdiyi ərazilərdə əhalini qoyduğu qaydalara baş əyməyə vadar etmişdir. Bu minvalla formalaşan müstəmləkə ərazilər və orada yaşayan xalqlar müxtəlif üsullarla hər imperiyanın özündən, yəni ağalarından aşağı tutulurdu. Məsələn, XIX əsrin ikinci yarısında Fransa və Böyük Britaniya Afrikada fərqli idarə üsulları tətbiq edirdilər. Britaniya yerli əhalini daha çox idarəçiliyə cəlb edir, Fransa isə əksinə, metropol modeli üzərində birbaşa nəzarəti həyata keçirməklə, afrikalılara fransız dilini öyrədir, fransızları Əlcəzairə daşıyırdı. İnsanlar iki yerə - "biz" və "onlar"a bölünmüşdü. Birincilər idarəçilikdə geniş hüquqlara və imtiyazlara malik idilər. İkincilərin isə qul kimi boyunduruqdan savayı heç nələri yox idi.

Bu gün özünü demokrat kimi bəşəriyyətə sırımaq istəyən Fransa Senatının və Prezidentinin timsalında təxminən 130 illik işğal dövründə Əlcəzairdə 10 milyondan artıq insanın qətlə yetirilməsini xatırlamaq istəmir. Lakin fransız müstəmləkəçilərinin faşist mahiyyətini bəşəriyyətin yaddaşından silmək mümkün deyil. Bu elə ağır cinayətdir ki, mütləq onun hesabı verilməli, bədəli ödənilməlidir. Çünki bir əsrdən çox Əlcəzairdə ağalıq edən fransızlar sonralar meydana gələn və gəlməyi ilə bəşəriyyəti fəlakətə sürükləyən faşistlərdən daha qəddar və daha amansız olublar.

Biz əvvəlki əsrlərdəki fransız və alman faşizmi ilə müasir erməni faşizmini müqayisə edərkən kimin daha qəddar və amansız olduğunu müzakirə etməyə cəhd göstərmirik. Buna lüzum da yoxdur. Əsas sual odur ki, faşist ideologiyasına yoluxan bəzi dövlətlər divan tutduqları xalqların qarşısında nəyə görə cinayətlərini etiraf etmirlər? Məsələn, alman xalqı kimi. Elə isə fransızlar və onların kiçik "bacı"ları ermənilər niyə almanlardan nümunə götürmürlər? Əksinə, biz onun şahidiyik ki, cinayətləri cəzasız qalan Fransa da, "məzlum" kimi onun bunun qoltuğuna sığınan Ermənistan da heç nə olmayıbmış kimi özlərini dünyaya demokratik dəyərlərin daşıyıcısı kimi sırımağa cəhd edirlər. Əslində, təəccüblənməyə ehtiyac yoxdur. Əgər sənin cinayətlərinə göz yumurlarsa, bu, belə də olmalıdır. Nə qədər ki, qatillər və canilər özlərini aydan arı, sudan duru biləcəklər, bu, belə də davam edəcək. 30 illik işğalı arxivə tullayan ermənilər bizi harada gəldi işğalçı elan edəcək, fransız xalqı da onlara züy tutub, qəm tütəyi ilə nalə çəkəcək.

Azərbaycan Prezidenti İlham Əliyev müasir dünya düzənində müxtəlif imperiyaların faşist ideologiyasına qarşı söz və əməllə döyüşən cəsarətli və dərin təfəkkürə malik bir liderdir. Onun erməni faşizmini ordusu ilə birlikdə məhv etməsi, Qafqazda sülhün bayrağını qaldırması misli görünməmiş gərgin əməyin və yenilməz sərkərdə qüdrətinin nəticəsidir. İlham Əliyevin Azərbaycana barmaq silkələməkdən zövq alan Makrona Moskvadan, Səmərqənddən, ya da hər hansı başqa ölkənin paytaxtından yox, məhz Əlcəzairdən cavab verməsi təsadüfi deyildi. Ona işarə idi ki, heç nə unudulmur, heç kimin əməli yaddan çıxmır. Bəşəriyyət "demokratik dəyərlərin müdafiəsi" altında dünyada faşist ideologiyasının yenidən boy verib cücərməsinə imkan verməyəcək.



Kiməsə elə gələ bilər ki, Azərbaycan Prezidenti Əlcəzairdən çox uzaq bir keçmişə səyahət etmiş, tarixi bir neçə yüz il geri vərəqləmişdir. Lakin şahid ifadələri qalır axı... Tək birini xatırladırıq. Fransız yazıçısı Simona de Povuar belə yazır: "1954-cü ildən biz fransızlar soyqırımının ortağı olmuşuq. Sülh yaratmaq bəhanəsi ilə silahlı basqınlar zamanı Əlcəzair əhalisinin bir milyondan çoxunu qətlə yetirdik. Biz bütöv kəndləri sakinləri ilə birlikdə yandırdıq, əhalini qırdıq, hətta doğulmamış uşaqları belə ana bətnindən çıxarıb işgəncə ilə öldürdük. Bütün qəbilələr soyuqdan və aclıqdan əziyyət çəkdi, konsentrasiya düşərgələrində epidemiyalardan öldülər". Ümumiyyətlə, həmin tarixə aid bütün faktlar bir-birindən daha dəhşətli və daha tükürpədicidir. Hər 10 ərəb qadın məhbusdan 9-u zorakılığa məruz qalmışdır. Kütləvi zorlamalar fransız qoşunlarının, xüsusən də kənd yerlərindəki əsgərlərin gündəlik əyləncəsi olmuşdur. Çünki əməliyyat zamanı ələ keçirilən qadınlar qənimət sayılırdı. Yerli əhali 132 illik işğal ərzində yüksək vəzifələr tuta bilmədi və onlar insan yerinə qoyulmadı. Əlcəzairdə Fransadan köçürülən fransızlara "sütun"lar deyirdilər. "Sütun"lar münbit Əlcəzair torpaqlarının 40 faizinin sahibi idilər. Onların maaşları yerli əlcəzairlilərə verilən əməkhaqqından dəfələrlə yüksək idi və s.

Fransada bu gün də ərəblərə üçüncü növ adamlar kimi baxanlar var və görünür, Makron onlardan biridir. Belə olmasaydı, o, saxta ittihamlarla Azərbaycanın üzərinə gəlməzdi, özünü də, Fransanı da hörmətdən salmazdı. Amma nahaq. O üzdən ki, Makronun "həmlə"ləri genetik müstəmləkəçi ambisiyalarından doğan hikkələrdən və bir də qardaş ola bilməyən "bacı"ların ortaq "dəyər"indən başqa heç nə deyil. Onun və Senatının 20 min erməniyə özgə dövlətin ərazisində muxtariyyət almaq eşqinə düşməsinə, gündə Azərbaycana qarşı ittiham və tələblərlə dolu bir sənədin müzakirəyə çıxarılmasına başqa nə ad vermək olar ki?!

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Ermənistan hər vasitə ilə sülh danışıqlarını pozmaq istəyir

**44 günlük Vətən müharibəsi zamanı diz çöküb aman diləyən Nikol Paşinyan indi hər vasitə ilə sülh danışıqlarını pozmağa çalışır. Ordumuz tərəfindən 2020-ci ildə başı əzilib tar-mar olan Ermənistan ordusu yeni revanş götürməyə cəhd edir.**

Bir neçə gündür ki, Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun müxtəlif istiqamətlərdə atəşkəsi pozması barədə məlumat verir. Unutqanlıq şizofreniyanın əlamətləridir. Ermənistan hərbi-siyasi rəhbərliyi də bu xəstəliyə mübtəla olub. İki il əvvəl başlarına gələnlər deyəsən yadlarından çıxıb. Sentyabrın 14-də də eyni ağılsızlığı edib sərhədlərimizdə təxribat törətməyə cəhd etmişdilər. Bunun nəticəsi olaraq 146 nəfərin cəsədini təxribat törətdikləri ərazidə qoyub qaçmağa məcbur olmuşdular. Unudurlar ki, delimitasiya olmamış ərazilərdə ilişib qalmış son 13 cəsədin qalıqlarını cəmi bir neçə gün əvvəl Ermənistana vermək üçün "Qırmızı xaç"a təhvil vermişik. Bunlardan dərs götürmək əvəzinə yenə sərsəm başları özlərinə bəla axtarır.

Ermənistanın sərhədlərimizdə təxribat törətməsinin bir səbəbi var: Paşinyan artıq iki ildir ki, ağır məğlub durumda sülh sazişini imzalamamaq üçün yollar arayır. Paşinyan sülh sazişini imzalamamaq üçün əlindən gələni edir və bu istiqamətdə də əsas dayağı Fransada tapıb. Praqada baş tutan görüşdə Paşinyan üçün bir ümid yaranmış oldu. Həmin görüşdə iştirak edən Fransa Prezidenti Makron görüş zamanı Avropa İttifaqının müşahidə missiyasının Ermənistanla Azərbaycan sərhədinə göndərilməsi təklifini verdi. Təbii ki, Azərbaycanın mövqeyi qəti oldu.

Biz yaxşı bilirik ki, Avropa İttifaqının müşahidə missiyasının regiona göndərilməsində məqsəd münaqişənin tənzimlənməsi prosesini sürətləndimək və yüngülləşdirmək istiqamətində atılan addım deyil. Bu, daha çox geosiyasi qarşıdurma elementi kimi nəzərdən keçirilir. Paşinyanın da məqsədi bu idi ki, yekun sülh sazişi imzalanmasın. Ona görə də Ermənistanın dili ilə danışan Fransanın Azərbaycanın əleyhinə yönəlmiş hər bir təklifini Ermənistan qəbul edir. Danışıqlar masasında Fransa ilə birlikdə oturmaq istəyi də sülh müqaviləsindən yayınmağa xidmət edir.

Bu səbəbdən də dövlətimizin başçısı qəti olaraq bəyan edib ki, təcavüzkar Ermənistanın qeyri-obyektiv mövqeyini dəstəkləyən Fransa Prezidenti Emmanuel Makron danışıqlar prosesində iştirak edə bilməz. Əli hər yerdən üzülən Nikol Paşinyan və Emmanuel Makron öz ağılları ilə danışıqlar prosesinə təsir göstərmək və ya sülh danışıqlarını pozmaq məqsədilə tez-tez atəşkəsi pozmaqla nəyəsə nail olacaqlarını düşünürlər. Unudurlar ki, sirkə nə qədər tünd olsa, öz qabını çatladar. Ermənistan yenə müharibə istəsə, silah dili ilə danışmağa cəhd etsə, bu dəfə onun sonu olacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# REGİONLAR

## Çox çəkməyəcək...

### "Cənnət görmək istəyən..." Qarabağ və Şərqi Zəngəzura gələcək

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü təsdiqlənmişdir. Bu yeniliyin əsas tərəfi ondan ibarət idi ki, əgər sözügedən fərmanadək ölkə ərazisində 10 iqtisadi rayon mövcud idisə, yeni bölgü ilə onların sayı 14-ə çatdırılmışdır.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn deyir ki, iqtisadi rayonlar üzrə bölgüyə yenidən baxılmasını Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi şərtləndirirdi: "Fərmanda göstərildiyi kimi, bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir. Onun üçün Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılıb. Çünki Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb". Ekspert onu da vurğulayıb ki, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması həm də tarixi ədalətin bərpasıdır. Fərmanda da göstərilir ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşən və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri etmişdir. Həmçinin fərmanda Qarabağa vahid yanaşma var, yeni dağlıq və aran Qarabağ bir götürülür. Sənəddə qeyd olunduğu kimi, Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, eləcə də Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla, özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacib idi.

İşğaldan azad edilən ərazilərin sürətlə yenidən qurulması və ölkə iqtisadiyyatına inteqrasiyası, Böyük qayıdışın təmin edilməsi gələn ilin büdcə layihəsinin Milli Məclisdə müzakirələri zamanı da diqqət mərkəzində olmuşdur. Parlamentdə Böyük qayıdışın təmin edilməsi zamanı işğaldan azad olunan ərazilərin zəngin resurs və infrastruktur potensialının səmərəli istifadə edilməsi, əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılmasının dəstəklənməsi məqsədilə "2023-cü ilin dövlət büdcəsi haqqında" qanun layihəsi ilə yanaşı, Vergi və Əmək Məcəllələrində, "Sosial sığorta haqqında" qanunda dəyişikliklərin edilməsi barədə qanun layihələri də təqdim edilmişdir. Bu layihələr Azərbaycan Prezidentinin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamının icrası ilə əlaqədar hazırlanmışdır.

Sənədlərdə göstərilirdi ki, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən rezident vergiödəyicilərinin 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən, həmçinin siyahısı təsdiq ediləcək istehsal fəaliyyəti sahələrində fəaliyyət göstərəcək sahibkarlar tərəfindən xammal və materialların idxalının əlavə dəyər vergisindən azad edilməsini nəzərdə tuturlar. Bununla yanaşı, işəgötürənlər tərəfindən ödənilən sosial sığorta haqları 2023-cü il yanvarın 1-dən 10 il ərzində dövlət tərəfindən subsidiyalaşdırılacaq. Habelə işğaldan azad edilmiş ərazilərdə çalışanların vəzifə maaşlarına 5 il ərzində 20 faiz məbləğində əlavə, müasir bilik və bacarıqlara malik mütəxəssislərə bu ərazilərdə 1 il müddətinə əmək müqaviləsi bağladıqda vəzifə maaşı həcmində birdəfəlik müavinət veriləcək. Qeyd olunan güzəştlərin dəyəri ildə 150 milyon manat məbləğində dəyərləndirilir.

İşğaldan azad edilən və yenidən qurulan bölgələrimizin bərpası üçün dövlət tərəfindən ayrılan məbləğin ilbəil artırılması davam edir. Əgər bu məqsədlə 2021-ci ildə dövlət büdcəsindən 2 milyard 200 milyon, 2022-ci ildə 2 milyard 200 milyon manat (ilin birinci yarısında büdcənin gəlirləri artdığı üçün əlavə 470 milyon manat) vəsait ayrılmışsa, gələn il bu istiqamətdə büdcədən 3 milyard manat vəsaitin xərclənəcəyi nəzərdə tutulub. Bunun üzərinə özəl şirkətlərin Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsində öz vəsaitləri ilə iştirak etdiklərini də gəlsək, onda işğaldan azad olunmuş ərazilərimizin, Prezidentin dediyi kimi, tezliklə cənnətə dönəcəyi şübhəsizdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Qarabağda su ehtiyatlarının bərpası 100 min hektardan çox sahənin suvarılmasını yaxşılaşdıracaq

İşğaldan azad olunmuş Qarabağ iqtisadi zonasında meliorasiya və su təsərrüfatı sahəsi üzrə tədbirlərin icrasına başlanılıb. İşlərin gerçəkləşməsi üçün müqavilələr bağlanılıb və təmir-bərpa işləri görülür.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavini Rafiq Aslanov AZƏRTAC-a açıqlamasında Qarabağda görülən işlər barədə məlumat verib. Bildirib ki, əsas su anbarları Sərsəng və Suqovuşandır. Bu su anbarlarından magistral kanallar ayrılır. Həmin su anbarlarında bəndin və kanalların bərpası işlərinə başlanılıb. Bu işlərin gələn ilin oktyabrında yekunlaşdırılması nəzərdə tutulur.

"Bu su anbarı kompleksinin altında 96 min hektara yaxın suvarılan sahələr mövcuddur ki, bunlar da bir neçə rayonun ərazisində yerləşir. Ağdam rayonu ərazisində yerləşən və sututumu 23 milyon kubmetr olan Xaçınçay su anbarının altında isə 7 min hektar suvarılan torpaq mövcuddur və su anbarından 7 kilometr uzunluqda magistral kanal vasitəsilə suyun ötürülməsi həyata keçirilir. Xaçınçay su anbarı ətrafında minatəmizləmə işləri həyata keçirilib, texniki-iqtisadi əsaslandırma və layihələndirmə işləri tam yekunlaşıb və müsabiqənin qalibi elan olunaraq tikinti-bərpa işlərinə başlanılıb", - deyə o bildirib.

Suqovuşan və Xaçınçayda bərpa işlərinin də 2023-cü ilin oktyabr ayında yekunlaşması planlaşdırılır.

Rafiq Aslanov deyib ki, Füzuli rayonu ərazisində isə Köndələn çayı üzərində yerləşən 3 su anbarı mövcuddur. Onların da ümumilikdə 16,1 milyon kubmetr sututumu var və su anbarları altında 6200 hektar suvarılan sahələr mövcuddur. Bu anbarlarda da texniki-iqtisadi əsaslandırma, layihə-smeta sənədləri hazırlanıb və işlərə başlanılıb.

## Çəltik biçini başa çatıb

### Məhsuldarlıq yüksəkdir

Azərbaycanda çəltik biçini başa çatıb. Bu il respublikanın 9 rayonunda çəltik əkini aparılıb. Çəltik əkinlərinin ümumi sahəsi 3194,25 hektar təşkil edir. 2022-ci ildə ən çox Lənkəran (802,3 ha), Ağdaş (681 ha) və Ucar (678 ha) rayonlarında çəltik əkilib.



Son məlumata görə, sahələrdən 11558 ton məhsul yığılıb. Hazırda çəltik üzrə orta məhsuldarlıq 36,2 sent/ha təşkil edir. Bu, ötən ilin yekun orta məhsuldarlıq göstəricisindən 1,4 sent/ha çoxdur.

Bu il ölkə üzrə 2021-ci ilə nisbətən 858 ton daha çox məhsul istehsal olunub.

Qeyd edək ki, çəltikçilik ölkənin ərzaq təhlükəsizliyi zəncirində önəmli yer tutur və çəltik bitkisi Azərbaycanda ənənəvi becərilən bitki hesab olunur.

Son illər Azərbaycanda çəltikçiliyin inkişafına böyük önəm verilməklə bu sahəyə dövlət dəstəyi daha da gücləndirilib, əkin sahələrinin və məhsul istehsalının artırılması ilə bağlı bir sıra zəruri tədbirlər həyata keçirilib.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, çəltik becərilən sahənin hər hektarına görə, fermerlərə 360 manat əkin subsidiyası verilir.

Bu il ilk dəfə olaraq Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı sortlarının yaradılması, introduksiyası, yerli şəraitə adaptasiyası və toxumçuluğunun təşkili istiqamətində tədqiqat işlərinə başlanılıb və institutda "Çəltik bitkisinin seleksiyası və becərmə texnologiyası" şöbəsi yaradılıb. Həmçinin çəltiyin seleksiyası və toxumçuluğuna dair tədqiqat işlərinin aparılması üçün Lənkəran rayonu ərazisində lazımi infrastruktur yaradılıb.

2020-ci ildən Əkinçilik Elmi-Tədqiqat İnstitutunda 2020-2024-cü illər üçün çəltiyin seleksiyasına dair təsdiq olunmuş mövzu planına əsasən, Lənkəran bölgəsində seleksiya tədqiqatları həyata keçirilir. Lənkəranda hər il 1,0-1,5 hektar sahədə toxumluq məqsədilə "Avanqard" sortunun superelit reproduksiyalı əkini aparılır və 2,5-3,0 ton elit toxumu istehsal edilərək bölgə fermerlərinə verilir.

## Azərbaycan və Türkiyə universitetləri Qarabağda turizmin inkişafını müzakirə ediblər

Mingəçevir Dövlət Universiteti (MDU) və Ankara Hacı Bayram Veli Universitetinin birgə təşkilatçılığı ilə "Şuşa ili"nə həsr olunan "Qarabağda turizmin davamlı inkişafı: mövcud potensial, əsas hədəflər və Türkiyə təcrübəsi" mövzusunda onlayn konfrans keçirilib.

MDU-dan verilən məlumata görə, konfransda sözügedən universitetlər arasında əməkdaşlığın qurulmasından ötən müddət ərzində həyata keçirilən fəaliyyət müzakirə olunub. Bildirilib ki, bu işbirliyində Qarabağda turizmin inkişafı ilə bağlı birgə elmi tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılıb və ənənəyə çevrilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2022-ci ilin ölkəmizdə "Şuşa ili" kimi qeyd olunması və qardaş ölkələrin universitetlərinin belə əlamətdar tarixi dövrdə birgə konfrans keçirməklə yenidən bir araya gəlməsinin yaxşı hal olduğu vurğulanıb.

Konfransda "Turizmdə davamlılıq və Türkiyənin davamlı turizm hədəfləri", "Dünyada davamlı turizm modelləri və örnəkləri", "Azərbaycanda turizmin davamlı inkişafı: strateji fəaliyyətlər və ana hədəflər" və "Qarabağ və Şərqi Zəngəzurun davamlı turizm potensialı: mövcud reallıqlar və perspektivlər" mövzusunda məruzələr dinlənilib. Məruzələrdə turizm sahəsində müşahidə olunan qlobal trendlər və tətbiq edilən qabaqcıl təcrübədən bəhs edilib. Eləcə də yeni turizm destinasiyası kimi Qarabağın mövcud potensialı nəzərdən keçirilib və təkliflər irəli sürülüb.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Qazaxda məktəb-lisey üçün yeni bina tikilir

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Qazax rayonu üzrə 11 məktəb binasının əsaslı təmiri və ya tikintisi nəzərdə tutulmuşdur.

Son dövrlər Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində rayonda Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagirdlik Kosalar kənd tam orta məktəbin əsaslı şəkildə yenidən qurulması, Şahnabad Nəsibova adına Sarıvəlli kənd tam orta məktəb üçün 220 şagirdlik yeni binanın inşa olunması, Elm və Təhsil Nazirliyi tərəfindən Aydın Məmmədov adına Qaymaqlı kənd tam orta məktəb üçün 180 şagirdlik yeni binanın tikintisi, həmçinin ADA Universitetinin "Bir müəllimin manifesti" layihəsi çərçivəsində milli təhsil sistemimizin başlanğıc nöqtəsi hesab edilən Qazax Müəllimlər Seminariyasının bərpa olunması rayonda təhsil sahəsinə olan yüksək dövlət diqqətinin əyani nümunəsidir.

Bu yaxınlarda isə Qazaxda daha bir təhsil ocağı üçün yeni binanın inşasına başlanmışdır. Prezidentin sərəncamı ilə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə 700 şagirdlik məktəb-liseyi üçün tikilən yeni binada işlər sürətlə gedir. Yeni bina 4 korpusdan ibarətdir. Tədris korpusu 4 mərtəbədən, 2 korpus 3 mərtəbədən, idman zalının yerləşəcəyi korpus isə 1 mərtəbədən ibarətdir. Kompleksdə geniş, işıqlı sinif, eləcə də kimya, fizika, biologiya laboratoriya və kompüter otaqları, 172 yerlik yeməkxana və 312 yerlik akt zalı inşa olunur. İnşaat işləri çərçivəsində məktəbin qarşısında Mehdi Hüseynin büstü qoyulmuşdur.



*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## İlə yekun vurulur

## Uğurlarımız da var, gözləntilərimiz də



**Müasir dövrdə bəşəriyyətin ən qlobal problemlərindən biri əhalinin ərzaq məhsulları ilə təminatını ödəməkdir. Bu səbəbdən dünya ölkələri, beynəlxalq qurumlar, xüsusən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Dünya Bankı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond ərzaq problemi olan ölkələrdə insanların minimum yaşayış kalorisi ilə təmin edilməsi üçün müxtəlif tədbirlər görürlər.**

Ölkəmizdə isə həyata keçirilən davamlı və sistemli aqrar islahatlar sayəsində kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı artır, kənd yerlərində məşğulluq və gəlir əldə etmək imkanları genişlənir. Bunu bizim Lerik rayonunun timsalında da görmək mümkündür.

Dağlıq ərazidə yerləşən rayonumuzda əkinçilik və heyvandarlıq əhalinin əsas məşğuliyyət sahələridir. 162 yaşayış məntəqəmizdə 11,4 min hektar əkinəyararlı torpaq sahəsi var. Yalnız dəmyə şəraitində əkib-becərsək də, bu sahə rayonun iqtisadiyyatında öncül yer tutur. Odur ki, Prezidentin "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 19 iyul 2022-ci il tarixli fərmanını əkinçilərimiz razılıqla qarşılamışlar. Bu fərman taxılçılığın inkişafına güclü stimul vermişdir. Rayonda taxıl istehsalı ilbəil artır. Cari ilin məhsulu üçün rayonda 2 min 699 hektar sahədə buğda və arpa, 165 hektarda çovdar əkilmişdi. Taxıl biçini optimal müddətdə başa çatdırılmış, məhsul itkisiz yığılmışdır. Taxılçılar 6 min 180 ton buğda, 257,3 ton arpa, 321,7 ton çovdar istehsal etmişlər. Buğda üzrə məhsuldarlıq 24, arpa üzrə 20, çovdar üzrə 19,5 sentnerə çatmışdır. Bəzi məhsul istehsalçıları isə hektardan 30 sentnerdən artıq məhsul əldə etmişlər.

Gələn ilin məhsulu üçün 2 min 800 hektar sahədə payızlıq taxılın əkilməsi nəzərdə tutulmuşdur. Hazırda 3 min 727 hektarda şum aparılmış, 3694 hektar sahədə payızlıq taxıl əkilmişdir. Ondan 3 min 391 hektarı buğda, 143 hektarı arpa, 160 hektarı çovdardır.

Bütün kəndlərimizdə tərəvəz bitkiləri və kartof da əkilir. Bugünəcən sahələrdən rayon üzrə 22,2 min ton kartof, 2,5 min ton soğan, 584,3 ton sarımsaq, 517,5 ton pomidor, 387 ton xiyar, 369,1 ton kələm yığılmışdır. Məhsuldarlıq da pis deyil, istehsalçılar razıdırlar.

Lerikdə əsas təsərrüfat sahələrindən biri də heyvandarlıqdır. Rayon üzrə ailə, kəndli-fermer və şəxsi təsərrüfatlarda 39 min baş iribaşlı, 114,1 min baş xırdabaşlı, 2,4 min baş təkdırnaqlı heyvan, 174 min baş ev quşları, 20 mindən çox arı ailəsi vardır. Cari ilin 9 ayında diri çəkidə 2 min 886,9 ton ət, 16 min 75,3 ton süd, 217,5 ton yun və 7 milyon 226 min ədəd yumurta istehsal edilmişdir ki, bunlar da əvvəlki ilin eyni dövrü ilə müqayisədə çoxdur.

Heyvanların cins tərkibini dəyişmək üçün rayonumuzda da ayrı-ayrı vətəndaşlar lizinq vasitəsilə cins heyvanlar almışlar. Bu iş süni mayalanma yolu ilə də həyata keçirilir. Təkcə cari ilin 9 ayında 453 baş qaramalda süni mayalanma aparılmış, 414 baş buzov alınmışdır.

Yeri gəlmişkən, heyvandarlıqda qarşılaşdığımız bir problemi qeyd etmək istərdik. Qoyunçuluqla məşğul olan fermerlərimiz heyvanları qışlama zamanı Biləsuvar və Neftçala rayonlarının ərazisində yerləşən qışlaqlara aparırlar. Həmin qış otlaq sahələrinin idarə olunması isə 2006-cı ildən Nazirlər Kabinetinin qərarı ilə adıçəkilən qonşu rayonlara verilmişdir. Bundan istifadə edən Biləsuvar və Neftçala rayon icra hakimiyyətləri son vaxtlar qış otlaq sahələrindən istifadəyə görə fermerlərlə bağlanmış icarə müqavilələrinə birtərəfli qaydada xitam verməyə başlamışlar. Nəticəsi o olub ki, fermerlərimiz qoyun-quzularını satmaq məcburiyyətində qalıblar. Buna görə də qoyunların baş sayında azalmalar baş verib. Prosesin qarşısı alınmazsa, rayonumuzda tarixi ənənəsi olan qoyunçuluq inkişafdan qala bilər.

Digər bir problem yunun realizəsi ilə bağlıdır. Təkcə bizim Lerikdə il ərzində orta hesabla 200-220 ton yun istehsal edilir. Bu yunu isə bəzən satmaq mümkün olmur. Əgər rayonumuzda yun qəbulu məntəqəsi və yun emalı müəssisəsi tikilərsə, problem həll edilər, üstəlik, yeni iş yerləri açılar, eyni zamanda vaxtilə 600 nəfərdən çox qadının çalışdığı xalçaçılıq sexinin fəaliyyəti bərpa olunar.

Rayonumuzda 20 mindən artıq arı ailəsi vardır. Onlardan bir ildə 120-150 ton arasında ekoloji cəhətdən təmiz təbii bal götürülür. Amma bu sahədə də umacağımız var. Məhsulun qəbulu, arıçılıqda istifadə olunan avadanlıqların və dərman preparatlarının satışı məntəqələrinin yaradılmasını gözləyirik. Bunlar həyata keçirilərsə, sahənin daha da inkişaf edəcəyi şübhəsizdir.

Veri və Piran kəndlərində 2,5 hektar sahədə özəl istixana salınıb. Burada əsasən pomidor və xiyar becərilir. Rayonumuzda "Lerik Broyler" MMC də fəaliyyət göstərir. Müəssisədə 100 nəfərə yaxın yerli sakin daimi işlə təmin olunub. Müəssisə il ərzində 5,4 milyon cücə, 19,5 min ton toyuq əti məhsulları, 37,5 min ton toyuq yemi istehsal etmək gücünə malikdir. Amma potensialımız təkcə bunlar da deyil. Sovet hakimiyyəti dövründə Lerikdə 3,5 min hektar üzüm, 470 hektardan çox meyvə bağları, 140 hektar çay plantasiyası, 220 hektardan artıq tütün, 300 hektardan çox tərəvəz və digər bitkilər əkilmiş, ətlik-südlük istiqamətli heyvandarlıq, ixtisaslaşmış qoyunçuluq təsərrüfatları mövcud olmuşdur. Məlum səbəblərdən üzüm bağları, çay plantasiyaları məhv edilərək sıradan çıxmış, mal-qara, heyvandarlıq kompleksləri sökülərək əmlak payı kimi vətəndaşlara verilmişdir. İndi həmin sahələrin dirçəldilməsinə ehtiyac var.

Lakin başqa ehtiyacımız da mövcuddur. Son zamanlar qlobal istiləşmə ilə əlaqədar rayonumuzun da ərazisinə yağıntılar normadan az düşür. Bu isə dəmyə şəraitində əkilib-biçilən bitkilərin məhsuldarlığına öz təsirini göstərir. O üzdən rayonumuzda da suvarma ilə bağlı layihələrin həyata keçirilməsi ən azından kartofçuluğun, tərəvəzçiliyin, meyvəçiliyin və digər sahələrin inkişafına müsbət təsir göstərərdi.

*Mahmud ZAHİDOV,*
*Lerik Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru*




| Ötən günün nəticələri | 4 dekabr təqvimi | 5 dekabr təqvimi |
|---|---|---|
| 1/8 FİNAL | 1/8 FİNAL | 1/8 FİNAL |
| Niderland- ABŞ 3:1 | Fransa- Polşa (19:00) | Yaponiya- Xorvatiya (19:00) |
| | İngiltərə- Seneqal (23:00) | Braziliya- C.Koreya (23:00) |

# Təcrübə fərqi

**Dünən dünya çempionatında 1/8 final mərhələsinə start verilib. Günün ilk matçında Niderland və ABŞ yığmaları qarşılaşıblar. Cari mundialda A qrupunun qalibi olan Lui van Qalın yetirmələri 2 qələbə və 1 heç-heçə ilə 1/8 finala yüksəliblər.**

Əvvəlki son üç mundialda bir gümüş və bir bürünc qazanan "narıncılar" Qətərə qızıl xəyalı ilə gəldiklərini nümayiş etdiriblər. Qruplarında yalnız bir matçda qalib gələn amerikalılar isə 2 heç-heçəyə imza atıblar.

Yekunda hər iki komandadan daha təcrübəli olan "narıncılar" qələbə qazanıblar. Rəqibini 3:1 hesabı ilə məğlub edən Niderland millisi ilk 1/4 finala çıxan komanda olub.

Qeyd edək ki, Niderlandın beynəlxalq arenada ən böyük uğuru iki dəfə Avropa çempionu olmaqdır. "Uçan hollandlar" 1976-cı və 1988-ci ildə keçirilən yarışı qazanıblar. Komandanın dünya çempionatındakı ən yaxşı göstəricisi isə 2-ci olmaqdır. Bu uğura 1974, 1978 və 2010-cu illərdə yiyələniblər. Niderland Rusiyada baş tutan (2018) son dünya çempionatının final mərhələsində yer almayıb.

Niderlandın heyətinin dəyəri 494,40 milyon avrodur. Komandanı dünya çempionatı oyunlarına Lui Van Qal çıxarıb. 71 yaşlı mütəxəssis 2021-ci ilin avqustundan millinin sükanı arxasındadır.

Niderlandın ən dəyərli oyunçusu Matteys de Lixtdir. "Bavariya"da çıxış edən müdafiəçinin qiyməti 70 milyon avrodur. Komandanın heyətində "Barselona"dan Frenki de Yonq, Memfis Depay, "Liverpul"dan Vircil van Dayk, "Mançester Siti"dən Natan Ake kimi ulduz futbolçular yer alır.



Niderlandın hazırda ən gənc oyunçusu Devin Renşdir. "Ayaks"da çıxış edən 19 yaşlı vinger ötən ilin sentyabrında yığmaya çağırılıb. Ən yaşlı futbolçu isə Remko Pasverdir. "Ayaks"da forma geyinən qolkiperin 38 yaşı var.

ABŞ milli komandası isə 11 dəfə dünya çempionatlarında iştirak edib. İlk dəfə 1930-cu ildə mundialda yarışan amerikalılar həmin ildə yarımfinala qədər yüksəliblər. Finalçı Argentinaya darmadağın olan (1:6) yığma 3-cü yer uğrunda matçda keçmiş Yuqoslaviyanı məğlub edib. ABŞ 1994-cü ildə mundiala evsahibliyi edib. Həmin il isə milli 1/16 finalda Braziliyaya uduzub - 0:1.

Ən dəyərli oyunçu Dortmund "Borussiya"sından Covanni Reynadır. Hücumameyilli yarımmüdafiəçinin qiyməti 35 milyon avrodur. ABŞ-də "Milan"dan Serjinyo Dest, "Yuventus"dan Ueston Makkenni, "Çelsi"dən Kristian Pulişiç kimi ulduz futbolçular yer alır. Komandanın ən yaşlısı Sen Consondur (33 yaş, qapıçı). Ən gənc isə 19 yaşlı Rikardo Pepidir. ABŞ yığmasının yerli mütəxəssis Qreqq Berhalter çalışdırır. O, 2018-ci ilin dekabrından millinin sükanı arxasındadır.

# Rodridən yeni rekord

**İspaniya millisinin futbolçusu Rodriqo Hernandes (Rodri) dünya çempionatları tarixində yeni rekord müəyyənləşdirib.**



26 yaşlı yarımmüdafiəçi buna qrup mərhələsinin 3-cü turunda Yaponiya ilə matçda (1:2) nail olub. Rodriqonun 215 ötürməsindən 204-ü (94,88 faiz) dəqiq alınıb. Bu isə rekord göstərici deməkdir.

Xatırladaq ki, Rodriqo 2018-ci ildən İspaniya millisinin üzvüdür. Qeyd edək ki, İspaniya Yaponiyaya məğlub olsa da, qrup ikincisi kimi 1/8 finala adlayıb. Komanda bu mərhələdə Mərakeş ilə qarşılaşacaq.

# Mundialların ən yaşlı futbolçusu

**Braziliya millisinin üzvü Dani Alveş yığmada yeni rekorda imza atıb.**



O, buna "DÇ-2022"-nin qrup mərhələsinin 3-cü turunda Kamerunla oyunda meydana çıxmaqla nail olub. 39 yaş 210 günlüyündə olan müdafiəçi milli ilə mundiallarda oynayan ən yaşlı futbolçu adını qazanıb. Qeyd edək ki, D.Alveş 2006-cı ildən Braziliya millisinin üzvüdür. Əlavə edək ki, qrup mərhələsinin 2-ci turunda 1/8 finala vəsiqəni təmin edən Braziliya 3-cü turda Kameruna uduzub - 0:1.

# Suares FİFA-nı günahlandırdı

**Uruqvay millisinin üzvü Luis Suares "DÇ-2022"nin qrup mərhələsinin 3-cü turunda Qanaya qalib gəldikləri görüşdən (2:0) sonra açıqlama verib. Qol.az saytı xəbər verir ki, o, hakim qərarlarından narazılığını ifadə edib və FİFA-nı günahlandırıb.**

Uruqvay Kamerun üzərində qələbəyə baxmayaraq 1/8 finala adlaya bilməyib. Qrupun digər oyununda Cənubi Koreya Portuqaliyanı üstələyib (2:1). Uruqvay qol nisbətinə görə Cənubi Koreyadan geri qalıb və qrupdan çıxmayıb. Luis Suares isə buna görə FİFA-nı günahlandırıb. 35 yaşlı hücumçu düşünür ki, ötən tur Portuqaliya ilə görüşdə Uruqvayın qapısına penalti təyin olunmasaydı, milli pley-offa adlaya bilərdi.

Luis Suares buna görə də FİFA-nın Uruqvay millisinə qarşı olduğunu fikirləşir: "Portuqaliya ilə görüşdəki penalti zərbəsi qol fərqi amilinə görə bizə zərər verdi. Eyni şeyi Nunyesin epizodu haqqında da demək olar, amma əks istiqamətdə. FİFA və hakimlər komitəsi inanılmaz penaltilər təyin etmək qərarlarının nəyə əsaslandığına dair aydın izahat verməlidirlər. Lakin digər tərəfdən Qana ilə oyunda bizə 2 penalti verilmədi. Lakin bu, bəhanə deyil. Belə görünür ki, Uruqvaya daha çox təsir lazımdır. FİFA həmişə bizə qarşıdır".



# Prezident millinin uğursuzluğu haqda danışdı

**Almaniya Prezidenti Frank-Valter Ştaynmayer "DÇ-2022"nin pley-off mərhələsinə vəsiqə qazana bilməyən milli komanda haqda danışıb.**



Ölkə rəhbəri mundialın çətin keçdiyini bildirib: "Əziz milli komanda, bizim üçün dünya çempionatı asan keçmədi. Əlbəttə, sizi alqışlamaq istərdik. Dərindən nəfəs almaq, bir az dincəlmək və yenidən enerji toplayaraq növbəti turnirə hazırlaşmağın vaxtıdır. Sizə uğurlar arzulayıram!"

Qeyd edək ki, E qrupunu Yaponiya 6 xalla başa vurub. İspaniya ikinci (4 xal), Almaniya üçüncü (4 xal), Kosta-Rika isə sonuncu pillədə (3 xal) qərarlaşıb. Almaniya top fərqinə görə uduzaraq növbəti mərhələyə vəsiqə qazana bilməyib.

# Daha bir baş məşqçinin istefası

**Qana millisinin baş məşqçisi Otto Addo istefa verib. Bu barədə Qana Futbol Federasiyasının rəsmi saytı məlumat yayıb. 47 yaşlı mütəxəssisin komandası "DÇ-2022"nin qrup mərhələsinin son turunda Uruqvaya uduzub.**



Nəticədə Qana yığması H qrupunu 3 xalla sonuncu pillədə başa vurub və mundialda mübarizəni dayandırıb. Bunun ardından Otto Addo vəzifəsindən ayrılıb.

Qeyd edək ki, Otto Addo bu ilin fevralından Qana millisini çalışdırırdı.

# Qol vurub, qovulan ikinci futbolçu



**Kamerun yığmasının hücumçusu Vensan Əbubəkr Zinəddin Zidandan sonra dünya çempionatında qol vurub, qırmızı vərəqə alan ikinci futbolçu olub.**

Braziliyaya əlavə vaxtda qələbə qolunu vuran Kamerun millisinin kapitanı sevincini qeyd edərkən formasını çıxardığı üçün ikinci sarı vərəqə ilə meydandan qovulub.

Xatırladaq ki, Fransa millisinin futbolçusu Zinəddin Zidan "DÇ-2006"da İtaliya ilə final görüşündə 7-ci dəqiqədə penaltidən qol vursa da, onun valideynini təhqir edən rəqib müdafiəçi Marko Materatsinin sinəsinə baş zərbəsi endirdiyi üçün qırmızı vərəqə ilə meydandan kənarlaşdırılmışdı.

# Neymar 1/8 finalı buraxa bilər

**Braziliya millisinin hücumçusu Neymar "DÇ-2022"nin 1/8 final mərhələsində Cənubi Koreya ilə keçiriləcək oyunu buraxa bilər.**

Bunu yığmanın həkimi Rodriqo Lasmar "Globo Esporte"yə açıqlamasında bildirib. O qeyd edib ki, hələ də kollektivlə məşqlərə başlamayan futbolçunun bərpa prosesinin nə qədər çəkəcəyi dəqiq bilinmir.

Qeyd edək ki, "DÇ-2022"nin 1/8 final mərhələsinin Braziliya - Cənubi Koreya matçı dekabrın 5-də keçiriləcək.



# Braziliyanın afrikalılara ilk məğlubiyyəti



**Braziliya millisi dünya çempionatları tarixində ilk dəfə Afrika komandasına uduzub.**

Bu nəticə qrupun 3-cü turunda Kamerunla oyunda qeydə alınıb. Kamerun millisi Cənubi Amerika təmsilçisinə 1:0 hesabı ilə qalib gəlib. Buna qədər afrikalılar mundiallarda Braziliya millisi ilə 7 dəfə qarşılaşıb və hamısında məğlub olub.

Qeyd edək ki, qələbəyə baxmayaraq, Kamerun qrupda qalıb. Braziliya isə qrup lideri kimi pley-offa yüksəlib.

# Kimmix günahı özlərində görür

**Almaniya millisinin yarımmüdafiəçisi Yozua Kimmix yığmanın "DÇ-2022" ilə erkən vidalaşması barədə fikirlərini bildirib.**



O, buna görə İspaniya millisini günahlandırmağın doğru olmadığını deyib: "Bu, karyeramın ən pis günüdür. Uçuruma düşmək kimidir. İlk oyunda Yaponiyaya uduzmaq pley-offa çıxmaq şansımızı azaltmışdı. Çox gözəl fürsətləri əldən verdik. Biz gözləyir və ümid edirdik ki, İspaniya son turda yaponlara qalib gələcək. Ancaq indi ispanları günahlandırmaq lazım deyil. Həm İspaniyanı, həm də Yaponiyanı məğlub etmək üçün şanslarımız oldu. Kosta-Rika ilə oyunda biz artıq fasiləyə kimi 4 qol vura bilərdik".

Xatırladaq ki, Almaniya millisi qrup mərhələsini 4 xalla 3-cü sırada başa vurub və mübarizəni dayandırıb.

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu
### *açıq tender elan edir*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 (Əlaqə telefonu: (012) 434-52-59, e.poçt: tender@sosial.gov.az) ünvanında yerləşən fondun Aparatının inzibati binasından ala bilərlər.

**İştirak haqqı: 215,00 (iki yüz on beş) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.4-cü maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti) və rekvizitləri;*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti); 01.09.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı;*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (malgöndərən (podratçı) tərəfindən hazırlanır);*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);*
9. *İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır); 10.05.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti); 01.09.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır; 01.09.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 12.01.2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 23.01.2023-cü il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 24.01.2023-cü il saat 17:00-da Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***




# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu
açıq tender elan edir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 (Əlaqə telefonu: (012) 434-52-59, e.poçt: tender@sosial.gov.az) ünvanında yerləşən fondun Aparatının inzibati binasından ala bilərlər.

İştirak haqqı: 215,00 (iki yüz on beş) manat
VÖEN: 1300050781
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
H/h: AZ46CTRE00000000000007018504
M/h: AZ41NABZ01360100000000003944
VÖEN: 1401555071
Kod: 210005
SWIFT: CTREAZ22
Büdcə gəlirlərinin təsnifat kodu: -142330
Büdcə səviyyəsinin kodu : - 4

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.4-cü maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti) və rekvizitləri;
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti); 01.09.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı;
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (malgöndərən (podratçı) tərəfindən hazırlanır);
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);
9. İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır); 10.05.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti); 01.09.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir;
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır; 01.09.2022-ci il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 12.01.2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 23.01.2023-cü il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 24.01.2023-cü il saat 17:00-da Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi, 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası


# 40 min taksi - çoxalan qəzalar, artan tıxaclar

## Paytaxtda sıxlığın aradan qaldırılması üçün taksi fəaliyyəti ilə bağlı müəyyən təkliflər var



**"Bakıda taksi kimi fəaliyyət göstərən nəqliyyat vasitələrinin sayı həddindən çoxdur. Azərbaycanda təxminən 40 min taksi olduğunu və bunun 28 mininin Bakının payına düşdüyünü düşünürük. Onların da 90 faizi onlayn platformalar üzərindən fəaliyyət göstərir. Halduki Türkiyənin İstanbul şəhərində bir neçə ildir ki, taksi fəaliyyəti üçün 17 325 ədədlik kvota var. Bakıda taksilərin sayının çox, bu sahəyə diqqətin az olması, sürücülərin 14-16 saat işləməsi qəzaların artmasına gətirib çıxarır".**

Bu sözləri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin baş mütəxəssisi Rauf Səfərov Azərbaycan Memarlıq və İnşaat Universitetində "Nəqliyyat və logistika kompleksinin inkişafı" mövzusunda keçirilən konfransda deyib.

Baş mütəxəssis əlavə edib ki, paytaxtda sıxlığın aradan qaldırılması üçün taksi fəaliyyəti ilə bağlı müəyyən təkliflər var. Bu təkliflər taksi fəaliyyətinin müvafiq icazə əsasında həyata keçirilməsini, sərnişindaşıma sahəsində sahibkarlıq mühitinin yaxşılaşdırılmasını əhatə edir.

Bəs görəsən Azərbaycanda, paytaxtda bu qədər taksinin fəaliyyət göstərməsini labüd edən səbəblər nələrdir? Taksilərin çoxluğu yol qəzalarına, tıxaclara yol açırmı?

### *Taksilərin fəaliyyətini inzibati yolla azaltmaq mümkün deyil*

"Azərbaycan"ın suallarını cavablandıran nəqliyyat üzrə ekspert Ərşad Hüseynov bildirib ki, taksilərin real sayı açıqlanan rəqəmdən daha çoxdur: "Təkcə Bakıda daimi və ya epizodik olaraq taksi fəaliyyətində istifadə olunan minik avtomobillərinin sayı 60 minin üzərindədir. Ölkəmizin digər şəhər və rayonlarında fəaliyyət göstərən taksiləri də hesablasaq, bu rəqəm daha da yüksələcək".

Ekspertin sözlərinə görə, əhalinin mobilliyini ictimai nəqliyyat tam yerinə yetirə bilmədiyi üçün taksi fəaliyyətinə ehtiyac artır: "İctimai nəqliyyatın hərəkətliliyi yetərincə olmayanda mobilliyi təmin etmək üçün başqa vasitələr axtarılır. Bu zaman da fərdi maşınlardan, bu olmadıqda isə taksilərdən istifadə olunur".

"Pandemiya dövründə ictimai nəqliyyatın fəaliyyəti dayandırıldı, metro uzun müddət fəaliyyət göstərmədi, ona görə də əhalinin mobilliyi ehtiyaclarını görən şirkətlər taksi xidmətlərini genişləndirdilər" deyən Ə.Hüseynov bildirib ki, hazırda taksi xidmətləri pandemiya dövründəki həmin genişləndirilmiş vəziyyətdə qalır.

Nəqliyyat eksperti söyləyib ki, taksilərin sayının çox olması həm də bu xidmətə əhalinin ehtiyacı olduğunu göstərir: "Bəs taksiləri kvotaya salsaq, azaltsaq, onların daşıdıqları insanların mobilliyi necə təmin olunacaq? İctimai nəqliyyatın hazırkı vəziyyətini nəzərə alaraq deyirəm ki, bu sualın cavabı yoxdur. Ona görə də inzibatçılıq yolu ilə kimsə taksilərin sayını azaltmağa qalxsa, problemlər ortaya çıxacaq. İnsanların mobilliyi təmin olunmayacaq. Yəni taksilərin fəaliyyətini inzibati yolla azaltmaq mümkün deyil".

Ekspert vurğulayıb ki, taksilərin sayının azaldılmasının yeganə yolu ictimai nəqliyyatın inkişaf etdirilməsidir: "Bu olarsa, görəcəyik ki, taksi xidmətindən istifadə edənlərin sayı azalıb".

### *Hərəkət axınlarında edilən lazımsız manevrlər qəzaların sayını artırır*

Yol-nəqliyyat hadisələrinə daha çox taksilərin səbəb olması ilə bağlı fikrə münasibət bildirən Ə.Hüseynov söyləyib ki, taksilərin icra etdiyi sifarişlərin sayı çox olduğuna görə təəssüf ki, yol-nəqliyyat hadisələrinin sayı da artıb: "Nəzərə alaq ki, taksi sürücülərinin əksəriyyətinə xüsusi təlim keçilmir, onların taksi sürücüsü kimi hazırlıq səviyyəsi yetərincə deyil və üstəlik, taksi fəaliyyəti ilə məşğulolmanın şərtləri də çox çətindir. Aqreqatorlar, sözün həqiqi mənasında, taksi sürücülərini istismar edirlər. Onları elə şərtlər daxilində xidmətə qoşurlar ki, həmin taksi sürücüsü gün ərzində 10, 12, 14, bəzən hətta 16 saat işləməli olur ki, özəl şirkətin irəli sürdüyü şərtləri ödəsin. Bu şərtləri ödəmək üçün o, yuxusuz qalır, yorğun olur, həmçinin çoxlu sifariş götürmək üçün yol hərəkəti qaydalarını pozur. Belə deyək, taksi sürücüsü hərəkət axınlarında lazımsız manevrlər edir və nəticədə qəzaların sayı artır".

Ekspert qeyd edib ki, sadalananlar, əslində, taksi sayının çoxluğundan yox, taksi sürücülərinin hazırkı fəaliyyət şəraitindən, onlara nəzarət olunmamasından irəli gəlir.

Ə.Hüseynov həmçinin fərdi maşınların və taksilərin yollarda çox olmasının tıxaclara gətirib çıxardığını bildirib.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# "DOST" xidmətləri işğaldan azad olunmuş rayonlara gedir

Düşmən işğalından azad olunmuş rayonlarımızda sürətlə infrastruktur layihələri həyata keçirilir. Yeni yollar çəkilir, körpülər salınır, məktəblər inşa edilir. Bir sözlə, hər kəs üzərinə düşən işi icra etməyə çalışır. Eyni zamanda işğaldan azad olunmuş rayonlarda bütün sosial xidmət strukturları da bərpa edilir.

İllərdir yurdundan didərgin düşmüş Zəngilan rayonunun Ağalı kənd sakinləri artıq öz dədə-baba torpaqlarında "ağıllı kənd"də qələbəmizin möcüzəsini yaşayırlar. Hazırda doğma yurd yerlərinə qayıdan əhalinin aktiv məşğulluq tədbirləri ilə əhatə olunması prioritet fəaliyyət istiqamətlərindən biridir. Zəngilan rayonunun Ağalı kəndində artıq sakinlərin aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına cəlb edilməsi sahəsində ilk mühüm addımlar atılıb. İnsanların sosial problemlərdən kənar qayğısız yaşamaları üçün hər cür şərait yaradılıb, yeni iş yerləri açılıb, istehsal müəssisələri fəaliyyətə başlayıb.

Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həmin ərazilərdə sosial sahədə dövlət xidmətlərinin müasir infrastrukturunun qurulması da təmin olunacaq. Belə ki, həmin ərazilər "DOST" xidmətləri şəbəkəsi ilə əhatə olunacaq.

Proqramın tədbirlər planına əsasən, 2023-2026-cı illərdə Cəbrayıl rayonunda regional "DOST" mərkəzi, 7 rayon və şəhərdə (Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşa) "DOST" filialları yaradılacaq.

Bu da işğaldan azad edilmiş ərazilərin əhalisinə əmək, məşğulluq, sosial müdafiə, əlillik və reabilitasiya sahələrində, o cümlədən vahid əlaqələndirmə mərkəzi üzrə xidmətlərin "bir pəncərə"dən, müasir və şəffaf, çevik, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında təqdim olunmasına şərait yaradacaq.

İşğaldan azad edilmiş bölgələrimizdə "DOST" xidmətlərinin qurulması istiqamətində ilk addım kimi 2022-ci ilin may ayında Zəngilanın Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilib.

Həmin bölgələrimizdə peşə hazırlığı və reabilitasiya infrastrukturu da qurulacaq. I Dövlət Proqramı çərçivəsində 2023-2026-cı illərdə Cəbrayıl rayonunda Peşə Hazırlığı Mərkəzinin, Kəlbəcər rayonunda əlilliyi olan şəxslər üçün Reabilitasiya Mərkəzinin yaradılması da nəzərdə tutulub.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rəşad Baxşəliyevə əzizi

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri Akif Eyvazova bibisi

**MUĞABƏR EYVAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6484
Sifariş 3388
Qiyməti 40 qəpik